31 iyul 2020-ci il
№23 (8887)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# “Təhsildə islahatlar dərinləşməlidir”

## Prezident İlham Əliyev Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Bu gün siz Təhsil naziri vəzifəsinə təyin olunursunuz. Sizə çox böyük etimad göstərilir. Bu etimadı siz öz işinizlə doğrultmalısınız. Siz gəncsiniz, sizin təyinatınız, eyni zamanda, gənclərə göstərilən etimadın növbəti təzahürüdür.

Bildiyiniz kimi, ölkəmizdə gəncləşmə siyasəti aparılır, gənclər çox önəmli vəzifələrə təyin edilir və hesab edirəm ki, hazırda Azərbaycanda idarəetmə sahəsində çox müsbət təcrübə əldə olunub. Yaşlı nəslin təcrübəsinin və gənc nəslin müasirliyinin, novatorluğunun sintezi ölkəmizin uğurlu inkişafına xidmət göstərir. Gənc olmağınıza baxmayaraq, sizin təhsil sahəsində təcrübəniz var. Təhsil Nazirliyində müxtəlif vəzifələrdə çalışmısınız. Bu günə qədər Təhsil İnstitutunun direktoru vəzifəsində işləyirsiniz. Ona görə əminəm ki, təhsil qarşısında duran problemlərlə bağlı sizin geniş fikriniz, məlumatınız var. Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir.

Son illərdə bu sahədə çox böyük işlər görülüb, təhsil sahəsi daim diqqət mərkəzindədir və bu da təbiidir. Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır. Ona görə artıq 17 ildir ki, mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır. Bu illər ərzində tamamilə yeni, müasir nəsil yetişib və gənclər bu gün bütün sahələrdə özlərini göstərirlər. Onların fəallığı, bilikləri, müasir texnologiyalara marağı ölkəmizi gücləndirir. Bizim sərhədlərimizi də, xalqımızın əmin-amanlığını da səngərdə düşmənlə üz-üzə olan döyüş məntəqələrində gənclərimiz ləyaqətlə qoruyur.

Təhsildə islahatlar dərinləşməlidir. Deyə bilərəm ki, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı təmir edilib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb. Ancaq həllini gözləyən məsələlər də həyatda öz həllini tapmalıdır və burada vaxt itirmək olmaz. Xüsusilə, dağ kəndlərində və uzaq kəndlərdə modul tipli məktəblərin tikintisi layihəsi də yaxın iki il ərzində başa çatmalıdır. İndi bir çox uzaq kəndlərdə bu layihə icra edilir. Kənd sakinləri də, uşaqlar da bundan çox razıdırlar. Bu proqram dövlət büdcəsinin xətti ilə icra edilir və ona görə yenə də deyirəm, bunun tamamlanması 2021-2022-ci ildə başa çatmalıdır. Bununla paralel olaraq, təhsilin keyfiyyəti artmalıdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, burada əsas məsələlərdən biri müəllimlərin peşəkarlığıdır. Çünki təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirlərsə, uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər.

Son illərdə Azərbaycanda müəllim peşəsinə ənənəvi hörməti bərpa etmək üçün çox böyük işlər görülüb. Dövlət xətti ilə həyata keçirilən xərclər bu sahədə xüsusi rol oynayır. 2015-2018-ci illərdə yeni yanaşma tətbiq olunmuşdur - müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilmişdir. Bu diaqnostik qiymətləndirmədən uğurla keçmiş müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artırılmışdır. Əlbəttə ki, bu, müəllimlər üçün əlavə bir stimul idi. Eyni zamanda, müəllim peşəsini seçənlərin də sayı buna uyğun şəkildə artdı və bu da məni çox sevindirir. Çünki bir neçə il bundan əvvəl müəllim olmaq istəyənlərin sayı kifayət qədər az idi. Ancaq son bir neçə ildə müəllim peşəsinə maraq artıb. Çünki müəllimlər indi daha yaxşı maaş alırlar. Onların cəmiyyətdə hörməti yüksək səviyyədədir. İndi onlar gözəl, təmir edilmiş, yenidən tikilmiş məktəblərdə, ali məktəblərdə çalışırlar. Mən hər il tədris ilinin ərəfəsində yeni tikilmiş və təmir edilmiş məktəblərə baş çəkirəm. Hər il bilik günündə də uşaqlarla, müəllimlərlə görüşürəm və qeyd edirəm ki, məktəb, eyni zamanda, müəllimin iş yeridir. Bu gün bu sahədə görülmüş işlər əlbəttə ki, müəllimləri həvəsləndirir. Ona görə təhsilin səviyyəsinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır.

⇨Ardı səh.2

■ Bu gün siz Təhsil naziri vəzifəsinə təyin olunursunuz. Sizə çox böyük etimad göstərilir. Bu etimadı siz öz işinizlə doğrultmalısınız. Siz gəncsiniz, sizin təyinatınız, eyni zamanda, gənclərə göstərilən etimadın növbəti təzahürüdür.

■ Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir. Son illərdə bu sahədə çox böyük işlər görülüb, təhsil sahəsi daim diqqət mərkəzindədir və bu da təbiidir.

■ ...Artıq 17 ildir ki, mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır.

■ Təhsildə islahatlar dərinləşməlidir. Deyə bilərəm ki, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı təmir edilib.

■ ...Son bir neçə ildə müəllim peşəsinə maraq artıb. Çünki müəllimlər indi daha yaxşı maaş alırlar. Onların cəmiyyətdə hörməti yüksək səviyyədədir.

■ Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan gənclərinin xaricdə təhsil almaları üçün xüsusi proqram qəbul edilmişdir. Bu proqram çərçivəsində minlərlə Azərbaycan gənci dövlət vəsaiti hesabına xarici ölkələrin aparıcı ali məktəblərinə ezam edilmişdir. Onlardan biri də sizsiniz və siz bu proqramla əhatə olunmusunuz.

■ Son illərdə bəzi xarici tərəfdaşlarla Azərbaycanda bir neçə peşə məktəbi açılıbdır və bu peşə məktəblərinə orta məktəbdə yaxşı oxuyan uşaqlar da üz tuturlar.

■ Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək.




# İlham Əliyev və dövlətin dil siyasəti

Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpası xalqımızın ən ali siyasi iradəsi və həyat formulasıdır. Dünya sivilizasiyasında yer alan bütün xalqlar kimi, azərbaycanlılar da dövlət müstəqilliyimizə nəticə deyil, vasitə kimi baxıb və indi də elə baxır. Hər bir xalqın keçmişi onun özünüdərki ilə şərtlənən tarixi, yaratdığı maddi və mənəvi nailiyyətlərin ifadəsi olan mədəniyyəti ilə ölçülür. Dil, o maddi və mənəvi xəzinənin ən mükəmməl məcmusudur və buna görə də o, hər bir xalqın varlığını təsdiq edən ən mühüm faktorlardan biri sayılır. Dil, sosial hadisədir və buna görədir ki, onu hər bir millətin keçdiyi yolun, onun formalaşmasının ən zəngin və mühüm göstəricisi kimi də qəbul edirlər.

Dövlət üçün başlıca vəzifələrdən birinin onun təmsil etdiyi xalqın dilinin inkişaf etdirilməsinin qarantı olmaq nümunəsini 1918-ci ildə, Azərbaycan Demokratik Respublikasının elan olunduğu vaxtlarda görmək olur. Həmin ilin iyun ayında, dövlət müstəqilliyindən bir neçə həftə sonra hökumətin ilk qərarlarından biri bununla bağlı idi. “Dövləti - lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında” hökumət Qərarında ana dilinin dövlət dili olacağı bildirilir, dövlət və hökumət qurumlarında rus dilindən istifadənin müvəqqəti hal olduğu diqqətə çatdırılırdı.

⇨Ardı səh.5

## E.E.Əmrullayevin Azərbaycan Respublikasının Təhsil naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Emin Eldar oğlu Əmrullayev Azərbaycan Respublikasının Təhsil naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 iyul 2020-ci il*

# “Təhsildə islahatlar dərinləşməlidir”

## Prezident İlham Əliyev Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib



# Prezident İlham Əliyevin çıxışı

⇦ **Əvvəli səh.1**

Təbii ki, dünyada gedən müsbət tendensiyalara daim fikir verilməlidir. İnkişaf etmiş ölkələrdə aparılan islahatlar dərindən təhlil edilməlidir və onların bizə uyğun olan hissəsi Azərbaycanda tətbiq olunmalıdır.

Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan gənclərinin xaricdə təhsil almaları üçün xüsusi proqram qəbul edilmişdir. Bu proqram çərçivəsində minlərlə Azərbaycan gənci dövlət vəsaiti hesabına xarici ölkələrin aparıcı ali məktəblərinə ezam edilmişdir. Onlardan biri də sizsiniz və siz bu proqramla əhatə olunmusunuz. Bildiyiniz kimi, biz bu proqramı Dövlət Neft Fondunun xətti ilə həyata keçirdik. Bu da rəmzi xarakter daşıyır. Biz bu proqramı dövlət büdcəsi hesabına həyata keçirə bilərdik, ancaq mən bunu məhz Dövlət Neft Fondunun xətti ilə keçirilməsinə qərar verəndə qeyd etmək istəyirdim ki, bu, strateji əhəmiyyət daşıyır. Çünki bu günə qədər Dövlət Neft Fondunun xətti ilə həyata keçirilən layihələr strateji əhəmiyyətli layihələrdir. Onların arasında, ilk növbədə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması layihələridir. Böyük infrastruktur layihələri və bu proqram məhz bu xətlə icra edilib. Ona görə bu proqram qəbul olunanda həm bu məsələ öz əksini tapdı, eyni zamanda, mənim yadımdadır, o vaxt bəzi hökumət üzvləri təklif edirdilər ki, bir halda, biz gəncləri dövlət hesabına xaricdə oxutdururuq, onların qarşısında şərt qoyulmalıdır ki, onlar təhsili başa vurandan sonra mütləq ölkəyə qayıtsınlar və məcburi qaydada 5-10 il ölkəmizdə işləsinlər.

Mən buna müsbət yanaşmadım. Yadımdadır, o vaxt mən dedim, biz bu işi görürük ki, ölkəmiz, xalqımız üçün gənc kadrlardan ibarət intellektual potensial yaradaq. Biz bunu edirik ki, gənclərimiz dünyanın aparıcı ali məktəblərində oxusunlar. Biz onları necə məcbur edə bilərik, onların qarşısına necə şərt qoya bilərik? Biz Azərbaycanda elə bir şərait yaratmalıyıq ki, onlar özləri qayıtsınlar. Çünki Azərbaycan vətəndaşları, onların mütləq əksəriyyəti öz Vətəninə, torpağına bağlı olan insanlardır. Siz də bunun şahidisiniz, o vaxt heç bir şərt qoyulmadan biz gəncləri xaricə ezam etdik, oxutdurduq. Hətta demişdim ki, onların bəziləri ölkəmizə qayıtmasa belə, yenə də onlar Azərbaycan torpağının övladlarıdır. Əgər onların istənilən ölkədə yaşaması onları qane edirsə, onlar orada da Azərbaycanla öz əlaqələrini kəsməyəcəklər. Artıq bu gün dünyada mövcud olan və fəallaşan Azərbaycan icmaları ölkəmizə də dəstəkdir. Biz də onları dəstəkləyirik. Dəfələrlə demişəm ki, bütün Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır. Buna görə bu müsbət təcrübə öz bəhrəsini verdi və siz bu proqram xətti ilə xaricdə təhsil almış insan kimi bunu görürsünüz. Siz qayıtdınız, burada çalışdınız, gənc olmağınıza baxmayaraq, sizə böyük vəzifələr etibar edilmişdir və bu gün siz nazir vəzifəsinə təyin olunursunuz.

Bununla paralel olaraq, o vaxt növbəti bir təşəbbüs irəli sürüldü. Aparıcı xarici ali məktəblərin Azərbaycanda filiallarının yaradılması məsələsi gündəliyə salınmışdı. Artıq qısa müddət ərzində Azərbaycanda 3 xarici ali məktəbin filialı fəaliyyət göstərir. Hesab edirəm ki, onların sayı daha da çox ola bilər və bu məsələlərlə siz bilavasitə məşğul olacaqsınız.

Bir məsələni də qeyd etmək istərdim. Bizim təhsilimizin ümumi səviyyəsi təbii ki, qalxmalıdır və təhsilli insan nə qədər çox olarsa, ölkəmizin intellektual potensialı o qədər də çox artacaqdır. Bununla paralel olaraq, bizim təhsil sistemimiz ölkəmizin ümumi iqtisadi və sənaye inkişafı ilə uzlaşmalıdır. Ona görə xüsusilə ali məktəblərə qəbul mərhələsində bütün bu məsələlər dərindən təhlil edilməlidir. Bizə hansı sahə üzrə nə qədər mütəxəssis lazımdır? Humanitar sahədə fəaliyyət göstərəcək nə qədər mütəxəssis lazımdır? Nə qədər texniki peşə sahibləri lazımdır? Ona görə bütün bunları siz mütləq aidiyyəti dövlət qurumları ilə birlikdə həll etməlisiniz. Bizim iqtisadi və sənaye inkişafımız planlı şəkildə həyata keçirilir. Həm dövlət siyasəti aparılır, eyni zamanda, dövlətin dəstəyi ilə yaradılmış şərait nəticəsində özəl sektor böyük investisiyalar qoyur və hansı sahələrə bu sərmayə qoyulur, bunu da hər kəs bilir. Bundan sonra bizə hansı peşələr lazım olacaq? Biz bunu da bilirik. Ona görə bizim təhsilimizin əsas istiqamətləri ölkəmizin sənaye və iqtisadi inkişafı ilə tam bağlı olmalıdır. Bir daha demək istəyirəm ki, siz bu işləri gərək aidiyyəti qurumlarla düzgün təhlil edib konkret təkliflər verəsiniz.

Digər vacib məsələ. Hesab edirəm, vaxt gəlib çatıb ki, biz bu məsələ ilə daha fəal məşğul olaq. Bu da Dördüncü Sənaye İnqilabının mövcudluğu, dünyada gedən rəqəmsallaşma tendensiyaları ilə bağlıdır. Rəqəmsallaşma, müasir texnologiyaların geniş yayılması və tətbiq edilməsi bəzi peşələri lazımsız edir. Artıq bu peşələrin siyahısı var. Bu peşələr artıq aradan qalxır və olmayacaq. Ona görə buna da daim fikir verməlisiniz. O peşələr ki, beş ildən sonra olmayacaq, bu peşələr üzrə mütəxəssislərin hazırlanmasına ehtiyac yoxdur. Amma bununla paralel olaraq, yeni peşələr ortaya çıxacaq, hansılar ki, bu gün yoxdur. Lakin hansı peşələrin olacağı ehtimal edilir, bu peşələr üzrə bizdə mütəxəssislər hazırlanmalıdır. Eyni zamanda, bəzi peşələrin aradan qaldırılması bizim üçün başqa bir problem yarada bilər. Çünki Azərbaycan demoqrafik baxımdan inkişaf edən ölkədir, bizim əhalimiz artır. Peşələrin aradan qaldırılması nəticəsində işsizlik arta bilər. Aradan qalxacaq peşələr o qədər də böyük peşəkarlıq və ixtisaslaşma tələb etməyən peşələrdir. Amma yeni yaradılacaq peşələr böyük bilik, savad və müasir texnologiyalar tələb edəcək. Odur ki, bütün bunları biz indi düzgün planlaşdırmasaq, böyük problemlərlə üzləşəcəyik.

Biz imkan verə bilmərik ki, Azərbaycanda işsizlik sürətlə artsın, baxmayaraq ki, pandemiya şəraitində bütün ölkələrdə işsizlik artır. Biz elə etməliyik ki, Azərbaycanda vətəndaşlar işlə təmin edilsinlər. Ona görə xüsusi əhəmiyyət daşıyan bu məsələyə Təhsil Nazirliyi aidiyyəti qurumlarla birlikdə mütləq böyük diqqət yetirməlidir, konkret təkliflər hazırlayıb təqdim etməlidir və cəmiyyətdə bu məsələ ilə bağlı maarifləndirmə aparılmalıdır. Müxtəlif tədbirlər, diskussiyalar, müzakirələr keçirilməlidir, vətəndaşlara bu haqda məlumat verilməlidir ki, onlar özlərini və yaxud da, öz övladlarını yeni dövrə uyğun hazırlayıb onlara düzgün tövsiyələr versinlər.

Peşə təhsili xüsusi əhəmiyyət daşıyan məsələdir, xüsusilə indiki şəraitdə. Bu gün Azərbaycanda yaradılan yeni peşə məktəbləri əlbəttə ki, sovet vaxtında mövcud olan peşə məktəblərindən böyük dərəcədə fərqlənir. Sovet vaxtında daha çox orta məktəbdə böyük nəticələr əldə edə bilməyən uşaqlar 8-ci sinifdən peşə məktəblərinə üz tuturdular və bu, adi bir praktika idi. Bu gün isə peşə məktəbləri çox böyük hörmətə layiq məktəblər olmalıdır. Son illərdə bəzi xarici tərəfdaşlarla Azərbaycanda bir neçə peşə məktəbi açılıbdır və bu peşə məktəblərinə orta məktəbdə yaxşı oxuyan uşaqlar da üz tuturlar. Bunu həvəsləndirmək vacibdir, çünki bizə peşəkar kadrlar lazımdır.

Bu gün ölkəmiz elə sürətlə inkişaf edir ki, kadr hazırlığı ölkəmizin sənaye, iqtisadi inkişafına uyğun inkişaf edə bilmir. Bunun nəticəsində bizim son illər ərzində yaradılmış bir çox müasir müəssisələrdə xarici mütəxəssislər bütün rəhbər orqanlarda təmsil olunurlar. Mən buna normal baxıram, burada problem görmürəm. Bu, bütün dünyada belədir və peşəkar kadrların miqrasiyası təbii prosesdir. Amma mən çox istərdim ki, bizim kadrlarımız da yetişsin və həm Azərbaycanda, həm də başqa ölkələrdə azərbaycanlı kadrlar yüksək vəzifələrdə işləsinlər. Ona görə peşə məktəblərinin bu sahədə çox böyük əhəmiyyəti var. Əlbəttə ki, burada da, ilk növbədə, ümumi inkişaf meyilləri nəzərə alınmalıdır, hansı peşələr bizə nə vaxt lazım olacaq. Misal üçün, bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafının sürəti çox yüksəkdir və bilirəm ki, bu sahəyə maraq artır. Ona görə bu sahə üzrə peşə məktəbləri olmalıdır. Turizm, menecment sahələrinin, texniki peşələrin müasir standartlara cavab verməsi üçün addımlar atılmalıdır. Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır.

Bir neçə ölkədən ilkin təkliflər də irəli sürüldü. Artıq bizim təcrübəmiz var. Biz bunu adətən bu formada edirik ki, misal üçün, Azərbaycan tərəfi bütün texniki məsələləri və maliyyə məsələlərini öz üzərinə götürür. Xarici tərəfdaş isə sadəcə olaraq, tədris proqramlarını, texnologiyaları və müasir standartları ölkəmizə idxal edir.

Əlbəttə ki, gənclərin tərbiyə edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin çox böyük funksiyaları vardır. Gənclərin tərbiyə olunması, əlbəttə, ilk növbədə, ailələrdə baş verir. Mən çox şadam ki, Azərbaycan cəmiyyəti əsrlərboyu ailə dəyərlərini qoruyub saxlaya bilib. Ailədə verilən tərbiyə xalqımızın gələcəyini də təmin edəcəkdir. Ancaq bununla paralel olaraq, bizim həm orta, həm də ali məktəblərdə tərbiyə işinə yüksək, böyük diqqət verilməlidir. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalı, Vətənə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər. Xüsusilə, bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı öz Vətəni ilə fəxr edə bilər. Azərbaycan bu gün istənilən sahədə böyük uğurlar əldə edib.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol vermək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir. Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır. Amma buna nail olmaq üçün onlar milli ruhda tərbiyə almalıdırlar. Əgər qloballaşma adı ilə bizə yad olan və faktiki olaraq manqurtlaşma, eyniləşmə siyasəti idxal ediləcəksə, onda bizim gənclərimiz gələcəkdə ölkəmizin maraqlarını qoruya bilməyəcəklər. Bu, təkcə Təhsil Nazirliyinin vəzifəsi deyil, bu prinsiplər, ilk növbədə, ailələrdə, məktəbdə, uşaq bağçasında, ali məktəbdə, orduda və cəmiyyətdə üstünlük təşkil etməlidir.

Mən bir daha demək istəyirəm ki, sizə bu gün böyük etimad göstərilir. Siz öz işinizlə bu etimadı doğrultmalısınız. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

---

**Nazir Emin Əmrullayev** dedi:

- Möhtərəm cənab Prezident. Mən, ilk növbədə, Sizə təşəkkürümü bildirmək istəyirəm. Həqiqətən də bu, böyük etimaddır. Eyni zamanda, böyük məsuliyyətdir. Qeyd etdiyiniz kimi, Sizin rəhbərliyinizlə son dövrdə təhsil sahəsində həqiqətən də, müsbət dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklər istər şagirdlərin nailiyyətlərində, istərsə də bizim beynəlxalq reytinqlərdə əksini tapıb. Ən sevindirici hal ondan ibarətdir ki, bir çox dəyişənlər, yəni bir çox indikatorlar Təhsil Nazirliyi və yaxud da Azərbaycan hökuməti tərəfindən deyil, nüfuzlu beynəlxalq təşkilatlar və yaxud beynəlxalq olimpiadalarda şagirdlərimizin nailiyyətləri əsasında müşahidə edilir.

Siz də qeyd etdiyiniz kimi, təhsil sahəsi hazırda bir çox uğurlar əldə etmişdir. Siz bu uğurların bir qismini sadaladınız. O cümlədən də mən qeyd etmək istəyərdim ki, bu vektorun, bu müsbət istiqamətin davamlılığını təmin etmək qarşıda duran ən vacib məqsədlərimizdəndir. Eyni zamanda, Siz dövlət proqramını qeyd etdiniz. Mən fürsətdən istifadə edib, bir vətəndaş kimi, istərdim, ilk növbədə, Sizə minnətdarlığımı bildirim. Çünki bu proqram həm mənim, həm də minlərlə Azərbaycan gəncinin həyatını dəyişən bir proqramdır. Sizin bu təşəbbüsünüz həqiqi mənada bir çox insanın həyatını yaxşıya doğru dəyişmişdir. Çünki Siz də qeyd etdiniz ki, bu proqram xaricə oxumağa gedəndə vətəndaşdan hər hansı öhdəlik tələb etmirdi. Bu, daha çox mənəvi öhdəlik idi, nəinki maddi və ya hansısa hüquqi. Düşünürəm ki, hazırda proqram məzunlarının demək olar ki, böyük əksəriyyəti Azərbaycandadır və həmin investisiyanı geri qaytarmaq vaxtıdır. Yaxud, belə deyək, bunu davamlı olaraq etmək hər bir proqram məzununun mənəvi borcudur.

Sadaladığınız istiqamətlər üzrə müvafiq işlərin görülməsi təbii ki, qarşıda duran məsələdir. Təhsilin keyfiyyətinin artırılması və hər bir Azərbaycan vətəndaşının keyfiyyətli təhsillə əhatə edilməsi, o cümlədən də dövlət vəsaitinin, təhsilə ayrılan investisiyanın səmərəli istifadə olunması, düşünürəm ki, təhsildə qısa zamanda uğurların davamını gətirməyə imkan verəcək.

Sizə bir daha dərin minnətdarlığımı bildirirəm və qarşıya qoyulan vəzifələrin həlli üçün əlimdən gələni edəcəyimə söz verirəm. Sizə minnətdaram, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə uğurlar arzulayıram.



# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

İnsanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramı İslam dininin əsas bayramlarından biridir. Müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında İslam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Bilki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

Əziz bacı və qardaşlarım!

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 iyul 2020-ci il*

# "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1230; 2019, № 5, maddə 841) 1.3-cü bəndində "və fəaliyyətinə" sözləri ", fəaliyyətinə və peşə təhsili müəssisələrinin əldə etdiyi büdcədənkənar vəsaitdən ayırmalar da daxil olmaqla, maliyyələşdirilməsinə" sözləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 iyul 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda və 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1186; 2019, № 3, maddə 443, № 5, maddə 899) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 7-ci hissəsinin 3.4.1-ci yarımbəndində "Təhsilin İdarə olunmasının Məlumat Sistemləri" sözləri "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 39; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 5, maddə 802, № 8, maddə 1521; 2019, № 3, maddə 443, № 5, maddə 899, № 11, maddə 1719) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 3.4.1-ci yarımbəndində "Təhsilin İdarə olunmasının Məlumat Sistemləri" sözləri "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Qobustan rayonunun Təklə Mirzəbaba kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qobustan rayonunun Təklə Mirzəbaba kəndində 132 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Qəbələ rayonunun Zarağan kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qəbələ rayonunun Zarağan kəndində 528 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Şəki şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəki şəhərində 960 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Təhsil naziri kollektivə təqdim olunub





İyulun 28-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli sərəncamı ilə Təhsil naziri vəzifəsinə təyin olunmuş Emin Əmrullayevi nazirliyin kollektivinə təqdim edib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva son illərdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə nailiyyətlər əldə olunduğunu, xüsusilə təhsil sahəsində həyata keçirilən islahatları diqqətə çatdırıb.

Emin Əmrullayev dövlət başçısı tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. Nazir ölkə Prezidentinin təhsil sahəsində qarşıya qoyduğu hədəflərin layiqincə yerinə yetirilməsi, təhsildə islahatların daha da dərinləşdirilməsi və hər bir Azərbaycan vətəndaşının keyfiyyətli təhsillə əhatə olunması üçün əlindən gələni edəcəyini bildirib.

## BDU-nun beş məzunu Almaniyanın DAAD təqaüdünü qazanıb

Alman Akademik Mübadilə Xidməti (DAAD) tərəfindən azərbaycanlı magistr və doktorantlara 2020-ci il üçün ayrılmış təqaüdlər təqdim olunub.

Qeyd edək ki, bu il DAAD fərdi proqramları çərçivəsində Azərbaycanda istedadlı tələbə və tədqiqatçılara 23 magistr və 9 tədqiqat təqaüdü verilib ki, onlardan 5 təqaüdçü Bakı Dövlət Universitetinin (BDU) məzunudur.

BDU-dan bildirilib ki, Adobe Connect platforması üzərindən onlayn qaydada təşkil olunan mükafatlandırma mərasimində Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq, bir sıra ali təhsil müəssisələrinin rəhbər şəxsləri və nümayəndələri iştirak edib.

BDU-nun rektoru Elçin Babayev çıxış edərək elm və təhsil sahəsində Azərbaycan-Almaniya münasibətlərinin hazırkı yüksək səviyyəsində DAAD-ın xüsusi rolunu vurğulayıb. Qeyd edib ki, bu əməkdaşlıq elmi mübadilə, həmçinin birgə elmi layihələrin həyata keçirilməsinə münbit şərait yaradır. Rektor dost ölkədə təhsil alacaq və tədqiqat aparacaq təqaüdçülərə uğurlar arzulayıb.

DAAD tərəfindən BDU məzunları - Fatimə Dəmirli, Günay Osmanova, Murad Talıbov magistr təhsili təqaüdü, Səbinə Fərzəliyeva və Elmir Xəlilov isə doktorantura təhsili təqaüdü alıblar.

## ADNSU təhsil xidmətlərini ixrac etməyə başladı

Məlum olduğu kimi, bu günlərdə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Banqladeşin Center for İnternational Studies (CİS) təhsil müəssisəsi arasında müqavilə imzalanıb.

ADNSU-nun rektoru, professor Mustafa Babanlı və Banqladeşin CİS tədris müəssisəsinin rəhbəri Xorşed Alam tərəfindən onlayn formatda imzalanmış françayzinq müqaviləsinə əsasən, Dəkkədə ASOİU Institute of Asia-nın fəaliyyətə başlaması nəzərdə tutulur.

İnstitutdan bildirilib ki, müqaviləyə görə ASOİU İnstitute of Asia ADNSU-nun əmtəə nişanından, (ASOİU — ingiliscə ADNSU-nun abreviaturasıdır — red.), tədris proqramlarından, professor-müəllim heyətinin tədris imkanlarından, e-Azi Elektron Kitab Evinin bazasından, idarəetmə sistemindən istifadə hüququ qazanaraq bakalavr təhsil pilləsi üzrə təhsil verəcək. 2020/2021-ci tədris ilində ASOİU İnstitute of Asia-ya Cənubi Asiyanın müxtəlif ölkələrindən olan 100-dən artıq tələbənin qəbulu planlaşdırılıb və müqaviləyə əsasən onlar 4 illik tədris müddətinin 2 ilini ADNSU-da alacaqlar. Tədris müəssisəsinin bakalavr pilləsi üzrə ilk məzunlarının magistratura təhsilini 1il +1il sistemi ilə Bakıda və Dəkkədə almaları nəzərdə tutulur.

ADNSU və CİS nümayəndələrinin Banqladeşdən olan 125 abituriyentin iştirakı ilə onlayn videokonfransı keçirilib. CİS tədris müəssisəsinin rəhbəri Xorşed Alam, ADNSU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rafiq Camalov, universitetin əcnəbi tələbələrlə iş üzrə dekanı, dosent Yaşar Həsənov, əcnəbi tələbələrlə iş üzrə dekan müavini Natiq Məmmədov tədrislə bağlı məsələləri müzakirə ediblər.

Qeyd edək ki, ASOİU İnstitute of Asia-da tədrisin başlanması ilə bağlı məsələlərin operativ həlli məqsədilə işçi qrup da yaradılıb.

## 4-cü Avropa Fizika Olimpiadasında qazanılan uğur

Azərbaycan məktəbliləri medalların sayını artırırlar

20-26 iyul 2020-ci il tarixlərində fizika fənni üzrə onlayn şəkildə 4-cü Avropa Fizika Olimpiadası (EuPhO 2020) keçirilib. 57 ölkənin məktəblilərinin qatıldığı olimpiada nəzəri və praktiki hissələrdən ibarət olub.

Azərbaycan məktəbliləri bu bilik yarışında 1 bürünc və 2 həvəsləndirici mükafat əldə ediblər. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin 11-ci sinif şagirdi Məhəmməd Yusifov bürünc medal, Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin 11-ci sinif şagirdi Köçəri Əsgərov və Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın 10-cu sinif şagirdi Sirac Yəhyazadə həvəsləndirici mükafata layiq görülüblər.




## Peşə təhsili sahəsində növbəti qarşılıqlı əməkdaşlıq

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyinin "Sürücü Təlim Mərkəzi" MMC arasında qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Memorandumun əsas məqsədi tərəflərin təlim və istehsalat bazası, mövcud təcrübəli kadr potensialından bəhrələnərək əmək bazarının tələblərinə cavab verən ixtisaslı mütəxəssislərin hazırlığının təmin edilməsindən ibarətdir.

Görüş zamanı tərəfləri maraqlandıran gələcək perspektivlər də müzakirə olunub.

## "Vətənpərvərlik" mövzusunda onlayn görüş

Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının təşkilatçılığı ilə keçirilən "Virtual BİR mən" adlı layihə davam edir. Layihənin əsas məqsədi tələbə-könüllülərin asudə vaxtlarının səmərəli dəyərləndirməsinə şərait yaradılması, bilik, bacarıqlar və dünyagörüşlərinin artırılması və şəxsi inkişaflarının təmin olunmasıdır.

"Vətənpərvərlik" mövzusunda keçirilən növbəti onlayn görüşdə Azərbaycan ordusunun zabiti, Aprel döyüşlərinin iştirakçısı, II qrup Qarabağ əlili Əhliyət Mehdiyev və ehtiyatda olan baş gizir, II qrup Qarabağ əlili Elşən Cəbiyev iştirak edib. Görüşə 150-dən çox tələbə-könüllü qatılıb, vətənpərvərlik, qəhrəmanlarımız və tələbələrin bu istiqamətdə sosial şəbəkələrdə fəal olması barədə danışılıb, həmçinin tələbə-könüllülərin sualları cavablandırılıb.

Qeyd edək ki, Təhsil Nazirliyi "Bir" Tələbə-Könüllü proqramı milli könüllü platforması kimi 24 000-dən çox tələbə-könüllü üzvə malikdir. Tələbələrin şəxsi inkişafı və asudə vaxtının səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək 550-dən çox yerli və beynəlxalq tədbirə könüllü və təşkilati dəstək verilib. BİR könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.

## Dərsliklərin qiymətləndirilməsi sahəsində mütəxəssis xidməti

Ümumi təhsil müəssisələri üçün nəzərdə tutulan dərsliklərin qiymətləndirilməsi sahəsində mütəxəssis xidmətləri tələb olunur.

Bildirək ki, dərsliklərin qiymətləndirilməsi "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"na əsasən 100 ballıq şkala əsasında həyata keçirilir.

Seçilmiş mütəxəssislər dərsliyin təhsil proqramına (kurikuluma) uyğunluğunu, dərsliyə daxil edilmiş materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönümlülüyü, tərbiyəyönümlülüyü, dəyəryönümlülüyü, şagirdlərin yaş xüsusiyyətlərinə uyğunluğu, dərslikdə nəzərdə tutulan pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə uyğunluğu, dizayn və tərtibatın məntiqliyi, estetikliyi və müasirliyini qiymətləndirəcəklər.

Namizədlər müraciət etdiyi fənni göstərərək elana əlavə olunmuş formada öz qısa avtobioqrafiyasını (CV) avqustun 31-dək *vusala.aliyeva@edu.gov.az* elektron poçt ünvanına göndərə bilərlər.

Ətraflı məlumatı müvafiq elan vasitəsilə əldə edə bilərsiniz.

> “Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir”.
>
> **Heydər ƏLİYEV,**
> **ümummilli lider**

## 1 avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü

# İlham Əliyev və dövlətin dil siyasəti

> **“Dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi, az qala, adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir”.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 1 noyabr 2018-ci il tarixli Fərmanından***

⇦ Əvvəli səh.1

Bu Qərarın Azərbaycanda ana dilinin dövlət dili olaraq işlədilməsini təmin edəcək ilk dövlət sənədi kimi tarixi qiyməti var. Düzdür, xalqımızın dövlətçilik tarixinin müəyyən məqamlarında Azərbaycan dilinin hətta diplomatik yazışmalarda işlədilməsini təsdiq edən nümunələr var, amma təəssüf ki, oxşar faktların ardıcıllığı diqqəti çəkməyibdir. Buna görədir ki, ADR hökumətinin bu addımı dövlət rəmzlərimizin qəbul edilməsi qədər əhəmiyyətli addım sayıla bilər. Hələ daşnak- bolşevik silahlı birləşmələrinin nəzarətində olan Bakı şəhərinə köçə bilməyən Azərbaycan Demokratik Respublikası hökumətinin qəbul etdiyi növbəti Qərar dil siyasətinin ardıcıllığından xəbər verirdi. “Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında” Nazirlər Şurasının qəbul etdiyi və dərhal icraya yönəldilən mühüm dövlət sənədi perspektiv siyasəti göstərirdi. Bu, ilk dəfə olaraq azərbaycanlı uşaqların doğma dillərində təhsil alma hüquqlarını qanunileşdirən dövlətin iradəsi idi. O faktı minnətdarlıq hissi ilə xatırlatmaq yerinə düşər ki, hökumətin dil və təhsil ilə bağlı qəbul etdiyi dövlət qərarları xalqımızın işıqlı ziyalılarının mənəvi dəstəyi və milli burjuaziyanın qabaqcıl nümayəndələrinin mesenantlıq fəaliyyəti ilə gerçəkləşirdi. Vətənpərvərlik hisslərindən qidalanan həmin fəaliyyətdə Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Həmidə xanım Məmmədquluzadə və digər insanlarımız yaxından iştirak edirdilər.



**Mahirə HÜSEYNOVA,**
*filologiya elmləri doktoru, professor,*
*ADPU-nun Filologiya fakültəsinin dekanı*

Azərbaycan Demokratik Respublikasının elan olunmasından 15 ay sonra, 1919-cu il sentyabr ayının 1-də Bakıda universitetin təsis edilməsi ilə bağlı Qərarın qəbul edilməsi elan edilən siyasətin davamı oldu.

Cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikası böyük işlərin əsasını qoysa da o işlər qırmızı terrorun müdaxiləsi ilə süquta yetirilən milli dövlətçiliyin ömrü kimi yarımçıq qaldı. Azərbaycanda sosialist inqilabının elan olunması ilə yaradılan İnqilab Komitəsinin 8 fevral 1921-ci il tarixli əmri ilə “Sovet idarələrində kargüzarlığın rus və türk dillərində aparılması” tətbiq edildi. Əslində bu, dünənki milli respublikaların dövlət müstəqilliyini qəsb etmiş bolşevizmin “xalqların milli-azadlıq uğrunda mübarizəsinin” yekunu kimi təqdim etdiyi imitasiyadan başqa bir şey deyildi. 1924-cü il iyun ayının 27-də qəbul edilən “Respublikanın dövlət idarələrində dövlət dilini, əhalinin əksəriyyətinin və azlıqda qalan millətlərin dillərini tətbiq etmək haqqında” qərar isə kağız üzərində qaldı. 32 il sonra, 1956-cı ildə nominal dövlət müstəqilliyi olan Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan SSR dövlət dili barəsində maddə əlavə edilməsi haqqında Qanun da eyni effekti verdi. 1969-cu ilin yayında Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda sovet hakimiyyəti qurulandan sonrakı müddətdə ilk dəfə Azərbaycan dilinin dövlət dili statusuna qaldırılması istiqamətində fəaliyyətə başladı. O, indiki Bakı Dövlət Universitetinin İttifaqın hər yerindən, həmçinin xarici ölkələrdən olan qonaqların da iştirak etdiyi möhtəşəm yubiley tədbirində o günəcən yaranmış standartları ilk dəfə pozdu. Ölkənin yeni gənc lideri universitet müəllim-professorlarının, tələbələrin və Moskvadan gəlmiş partiya-hökumət nümayəndələrinin qarşısında doğma ana dilində parlaq çıxış etdi. Ümummilli lider bu nitqi ilə respublikanın siyasi elitasına milli dilin dövlət qurumlarında tətbiqi ilə bağlı öz mesajını çatdırırdı. Bu istiqamətdə sonradan atılan addımlar onu göstərirdi ki, ölkənin yeni lideri qarşıdakı vəzifənin həyata keçirilməsində ardıcıl və qətiyyətlidir. Elə 1978-ci ildə, Azərbaycan SSR-in yeni qəbul edilən Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi həmin ardıcıllığın və qətiyyətin ifadəsi oldu. O qətiyyəti yaradan səbəblər barədə ümummilli liderimiz sonradan belə deyəcək: “Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir”.

Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyində olduğu vaxtlar Azərbaycan dilçilik elminin fundamental və çoxşaxəli tədqiqatlara cəlb edildiyi zamanlar kimi yadda qalıb. Çoxcildlik “Müasir Azərbaycan dili” kitablarının məhz ulu öndərin şəxsi qayğısı ilə Azərbaycan Dövlət Mükafatına layiq görülməsi də unudulmayacaq faktlardan biridir. Bu qayğı və diqqətin ən mühüm nəticələrindən biri onunla xarakterizə oluna bilər ki, Heydər Əliyevin doğma dilimizlə bağlı qurduğu dövlət siyasəti ölkəmizdə qarşısıalınmaz prosesə çevrilirdi. Elə həmin proseslərin nəticəsi oldu ki, ölkəmizdə milli-azadlıq hərəkatının dalğaları ilə dövlət dilinə münasibət cəmiyyət üçün prioritet istiqamətlərdən birinə çevrildi. “Yeni Azərbaycan əlifbası layihəsinin hazırlanması haqqında”, “Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında” qanunlar həmin ərəfədə qəbul edildi. Daha sonra epizodik də olsa oxşar addımlar atıldı, məsələn, 1992-ci il dekabr ayının 22-də “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Bütün bunlar əsası ötən əsrin 70-ci illərindən qoyulan dil haqqında siyasətin məntiqi davamı kimi ortaya çıxan dövlət sənədləri idi, lakin məsələyə kompleks yanaşma deyildi. Ümummilli lider 1993-cü ilin iyun ayında vətəndaş müharibəsinin bir addımlığında olan Azərbaycan Respublikasında ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra bu istiqamətdə dövlətin siyasi xəttini elan etdi. Həmin xətt ilk dəfə Ulu Öndərin birbaşa rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının Ana Qanununda - ölkə Konstitusiyasında yer aldı. Suveren dövlətimizin Konstitusiyasında Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri kimi təsbit edildi. Bu, həmin vaxtlar idi ki, ölkənin ancaq ziyalıları deyil, onların təmsil etdiyi cəmiyyətimizin özündə belə, ana dilimizin necə adlandırılması məsələsi əsas müzakirə obyektlərindən birinə çevrilmişdi. Dəfələrlə Prezident Heydər Əliyevin yanında bununla bağlı yaradıcı təşkilatların nümayəndələri, dilçi alimlər, yazıçı və şairlərin iştirakı ilə keçirilən, televiziya ilə yayımlanan müzakirələr zamanı böyük Vətənpərvərin məsələyə necə tarixi məsuliyyətlə, məntiqi arqumentlərlə yanaşmalarının şahidi olurduq. Onun şahidi olurduq ki, Ümummilli Lider tarixi keçmişimizin əvəzsiz xəzinəsini yaşadanları hansı ehtiramla yad edir: “Biz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da dilimiz ölməyib, yaşayıb. Onu xalq yaşadıbdır”.

Ümummilli liderimiz məsələyə korporativ maraqlar nöqteyi-nəzərindən yanaşan, populist ruha söykənən bəzi ziyalılara izah etmək məcburiyyətində qalırdı ki, Azərbaycan dili türk dilləri ailəsinin üzvüdür və türkdilli xalqların müştərək mədəniyyətinin yaranmasında min illər ərzində iştirakı var, lakin bunlar xalqımızın onu səciyyələndirən digər məxsusi keyfiyyətləri inkar etmir. Bu müzakirələr bir daha böyük siyasət adamının haqlı olduğunu ortaya qoydu və O, tutduğu ali dövlət vəzifəsi ilə deyil, dərin məntiqi, fenomenial yaddaşı ilə ancaq həmin müzakirənin iştirakçılarına yox, çoxmilyonluq auditoriyası olan televiziya tamaşaçılarına üz tutdu: “Biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik”.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bir dövlət xadimi və siyasətçi olaraq, bütün fəaliyyəti boyu göstərdiyi ardıcıllıqla dilimizi dövlət dili statusunda layiqli yerinə qaldıra bildi. Onun 1991-ci il dekabr ayının 25-də qəbul edilmiş “Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında”, 1992-ci il dekabrın 22-də imzalanmış “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarının praktikaya yönəldilməsini təmin edən sənədi imzalaması bunu təsdiq edir. Prezidentin 2001-ci il iyun ayının 18-də imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman bu istiqamətdə dövlət siyasətinin əhəmiyyətli mərhələsi hesab edilməlidir. Həmin Fərmanın imzalanması ilə bütün dövlət və qeyri-hökumət təşkilatlarında, həyatımızın bütün sahələrində dövlət dilinin işlək vəziyyətə gətirilməsi təmin edildi. Bununla bərabər, həmin vacib dövlət sənədinin imzalanması ilə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman dövlət dilinin problemlərinin həlli, bu məsələlərin elmi tədqiqata cəlb edilməsi üçün Azərbaycan dilçilik məktəbinin qarşısında yeni vəzifələr qoydu. Bunlardan əlavə, vacib dövlət sənədi həyatımızın bütün sahələrində Azərbaycan dilindən istifadə qaydalarını tənzimlədi, qüsurların aradan qaldırılması sahəsində mühüm rol oynadı. Fərman 9 il əvvəl qəbul edilsə də praktikaya yönəldilməsi ildən-ilə ləngidilən, Azərbaycan dilinin latın qrafikalı əlifbaya keçidində maneəyə çevrilən astagəlliyin, ətalətin aradan qaldırılmasında sözünü dedi: “Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülleten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun birinə qədər bütünlüklə latın qrafikalı əlifbaya keçməsini təmin etsin”.

Prezident Heydər Əliyevin 2001-ci il avqust ayının 9-da imzaladığı növbəti Fərman “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” idi. İmzalanan ali dövlət sənədinə görə Azərbaycan Respublikasının ərazisində “Hər il avqust ayının 1-i gününün Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü olaraq qeyd ediləcəyi” bildirilirdi.

Bunlar müstəqil Azərbaycan dövlətçiliyinin bərpasından sonra ölkədə ikinci dəfə siyasi hakimiyyətə gəlmiş ümummilli liderimiz Heydər Əliyevin dövlət dili ilə bağlı siyasətinin fundamental hüquqi bazasını yaradan ali dövlət sənədləri oldu. Ana dilinin böyük təəssübkeşi olan Prezident Heydər Əliyev bunlarla bərabər, dilimizin inkişafını şərtləndirən digər amillərə xüsusi önəm verirdi. O, bu istiqamətdə Azərbaycan dilçilik məktəbinin, onun zəhmətkeş və ardıcıl nümayəndələrinin qarşısında mühüm vəzifələr qoyur və o vəzifələrin yerinə yetiriləcəyinə inanırdı. Heydər Əliyev dilin sosial hadisə olduğunu, buna görə də onun inkişaf mərhələlərinin canlı orqanizm olaraq sosial mühitlə üzvi bağlılığını bilirdi. Onun bilavasitə təşəbbüsü ilə Milli Məclisə göndərilən, 2002-ci ilin sentyabrında qəbul edilən “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu dövlət dili ilə əlaqəli ən vacib hüquqi akt kimi tarixə düşdü.

Sənəddə Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca prinsiplərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qaldığı ifadə olunur. Bu Qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Qəbul edilən Qanun ümummilli liderimizin ana dilinin taleyi barədə təməl düşüncələrinin ifadəsi kimi diqqətçəkəndir. Onun 2003-cü ilin yanvarında təsdiq etdiyi “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununda Azərbaycan dili müstəqil dövlətçiliyin əsaslarından biri olaraq qəbul edilir, onun digər dillər arasında yaşaması və təkmilləşdirilməsi sahəsində konseptual ideyalar irəli sürülürdü. Bu qanunvericilik aktı ilə Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalırdı.

Ümummilli liderimiz Heydər Əliyev dövlət dilinin qayğısına ona görə qalırdı ki, o, dilimizi xalqımızın ən böyük milli sərvəti hesab edir və bu sərvətin göz bəbəyi kimi qorunmasının hüquqi əsaslarının yaradılmasına çalışır və buna nail olurdu. Bütün bunlarla bərabər, Heydər Əliyev mənsub olduğu xalqı dilin qorunması, inkişafı üçün ən etibarlı keşikçi sayırdı: “İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur”.

Prezident dilə lazım olan qayğı barədə hər məqamda danışır, onun lüğət tərkibinin zənginliyini birbaşa sosial həyatımızla bağlayır, bunu proporsional inkişaf dinamikasının qanunları ilə əsaslandırırdı: “Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik”.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan xalqının mütləq böyük əksəriyyətinin iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş və ən böyük amalı xalqına xidmət olan İlham Əliyev ulu öndərin dövlət dili siyasətini uğurla davam etdirir. Bu, həm də Prezidentin öz xalqının milli adət-ənənələrinə, onun qədim mədəniyyətinə bağlılığı ilə izah olunmalıdır. Milli kökünə bağlılıq, gələcək qarşısında məsuliyyət hissi Prezident Heydər Əliyevin başladığı strateji siyasəti 2003-cü ildən sonra davam etdirmək işində ən böyük potensial enerjisi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bununla əlaqədar imzalanmış sərəncam və fərmanların geniş spektri fikrimizi təsdiq edə bilər. Dövlət başçısının Azərbaycan dilində həmin vaxtlara qədər çap edilmiş istər dünya, istərsə də Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələrinin latın qrafikalı əlifba ilə nəşr edilməsini təmin edəcək Sərəncamının nümunəsində bunu görürük. Prezident İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncamı bu sferada yarana biləcək vaakkumu aradan qaldırmaqla, əlifba ilə bağlı digər texniki problemləri həll etdi. Onu demək kifayətdir ki, Prezidentin sonradan adıçəkilən Sərəncamın məntiqi davamı olaraq imzaladığı növbəti sərəncamlar əsasında 150 cildlik “Dünya ədəbiyyatı kitabxanası”, 100 cildlik “Dünya uşaq ədəbiyyatı kitabxanası”, 100 cildlik “Azərbaycan ədəbiyyatı kitabxanası” seriyasından nəşrlər latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr edildi. Prezidentin 2004-cü il yanvarın 13-də imzaladığı “Azərbaycan milli ensiklopediyasının nəşri haqqında” digər Sərəncamı isə Azərbaycan Milli Ensiklopediyasının çoxcildli nəşrinin başlanılmasını təmin etdi. Azərbaycan Milli Ensiklopediyasının yeni nəşri etnik özünüdərkin formalaşmasına ciddi təsir göstərən bir nəşr kimi nəzərdə tutulurdu. Ensiklopediyada xalqımızın bəşəriyyət tarixi, iqtisadiyyatı, mədəniyyəti, elm və siyasətindəki yeri və rolu, respublikamızda bu sahələrdə çalışanların, həmçinin görkəmli azərbaycanlı mesenat, mühacir və neft sənayesi sahibkarlarının nailiyyətləri, Azərbaycanın öyrənilməsində mühüm rolu olan əcnəbi tədqiqatçıların əsərləri öz əksini tapmalı idi və bu, belə də oldu.

Ümumilikdə isə, Azərbaycan Milli Ensiklopediyasının nəşri Prezident İlham Əliyevin maarifçilik məqsədi daşıyan böyük bir xidməti kimi dəyərləndirilə bilər.

Prezident İlham Əliyevin 2018-ci il noyabr ayının 1-də imzaladığı “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanın preambulasında qarşıdakı məqsədlər belə təqdim edilirdi: “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” 2012-ci il 23 may tarixli, “Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında” 2012-ci il 29 may tarixli, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2013-cü il 9 aprel tarixli, “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli sərəncamları, həmçinin “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli Qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Bütün yuxarıda qeyd olunan sənədlər doğma dilimizə göstərilən yüksək səviyyəli dövlət qayğısı barədə danışıq üçün əsas verir. Haqqında söhbət açdığımız Fərmanda isə göstərilir ki, bu istiqamətdə ardıcıl dövlət siyasətinin aparılması nə qədər zəruridir. O bir gerçəklikdir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir, lakin Prezidentin imzaladığı sənədin preambulasında Fərmanın verilməsini vacib edən faktorlar belə sadalanır: “Dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi, az qala, adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir”.

Fərmanda Monitorinq Mərkəzinin yaradılması və Monitorinq Mərkəzinin Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı”nın hazırlanması barədə tapşırıq verilir.

Prezident İlham Əliyevin dilimizin inkişafı və qorunması üçün münbit qanunvericilik bazasını dərinləşdirərək möhkəmləndirməsi onun bir Vətəndaş olaraq doğma ölkəsi və mənsub olduğu xalqa, onun maddi-mənəvi tarixinə, bu tarixin məcmusu hesab edilən dilimizə münasibətindən qaynaqlanır. Dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin qurulması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdırsa, bu siyasətin yaradıcılıqla davam etdirilməsi missiyası Prezident İlham Əliyevə məxsusdur. Ölkə rəhbərinin Azərbaycan dilinin qloballaşma şəraitində hərtərəfli inkişafı, ədəbi dil normalarının qorunması istiqamətində atdığı addımlar Azərbaycan dilçiləri ailəsi, ümumilikdə, Azərbaycan ziyalıları tərəfindən minnətdarlıqla qarşılanır. Həmin addımların isə ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin edəcəyinə inanırıq.

Prezident İlham Əliyevin dilimizin inkişafında başlıca rol oynayan kütləvi informasiya vasitələrinə xüsusi qayğısına həm də onun dilin inkişaf konsepsiyasının tərkib hissəsi kimi yanaşılmalıdır. Kütləvi informasiya vasitələrinin missiyası, əlbəttə, ancaq informasiya vermək və maarifçiliyi yaymaqdan ibarət deyil, 300 ildən artıq olan vaxt ərzində onlar həm də yayıldıqları dilin inkişafında xüsusi yer tutur. Buna görədir ki, Azərbaycan mətbuatının yaranmasından keçən müddət ərzində xalqımızın ən işıqlı ziyalıları jurnalistika ilə bərabər, dilimizin qrammatik normalarının qorunması, leksik tərkibinin zənginləşməsi işində can yanğısı, vətəndaş təəssübü ilə məşğul olublar. “Əkinçi” ilə başlayan və ənənəyə çevrilərək bu böyük işlərin əsasını onun naşiri, redaktoru, korrektoru belə özü olan Həsən bəy Zərdabi və müasirləri- Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və digər ziyalılarımız yaratdılar. Sonralar bu şərəfli işi Məhəmməd ağa Şahtaxtınski, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Haşım bəy Vəzirov, Əliqulu Qəmküsar, Üzeyir Hacıbəyov və onlarla insanımız davam etdirdi. Bugünkü Azərbaycan dilinin qorunması və inkişafında xidməti olan yüzlərlə dəyərli insanımızın ruhları qarşısında baş əyərək onların xatirəsinə ehtiramımızı ifadə edirik.

Prezident İlham Əliyevin imzaladığı, milli mətbuatımızın yaranmasının 145-ci ildönümü ilə bağlı 30 iyun 2020-ci il tarixli Sərəncamı əsası ümummilli liderimiz tərəfindən qoyulan ənənənin davamı kimi qəbul edirik. Adıçəkilən Sərəncamda kütləvi informasiya vasitələrinə dövlət qayğısını şərtləndirən faktorlar yada salınır: “Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır”.

COVID-19 pandemiyasının bütün dünyada olduğu kimi, ölkəmizdə də yayılması, bütün dövlət və hökumət resurslarının onunla mübarizəyə səfərbər olunduğu məqamlarda belə, mətbuat gününün ən yüksək səviyyədə keçirilməsini təmin edəcək sənədin imzalanması ölkə Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın kütləvi informasiya vasitələrinə verdikləri böyük önəmin təzahürüdür.

# Mingəçevir Dövlət Universiteti: modernləşməyə doğru

## 2019/2020-ci tədris ili MDU-da uğurla başa çatıb



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

Əvvəli qəzetimizin ötən sayında

### Çevik və şəffaf universitet idarəçiliyi

*Tələbələrin idarəetmədə fəal iştirakı*

Qabaqcıl dünya təcrübəsindən faydalanmaqla universitet idarəçiliyində daha çevik alətlərin tətbiqinə və şəffaf mexanizmlərin yaradılmasına mühüm diqqət yetirilmişdir. İlk növbədə, tələbələrin bütün səviyyələrdə idarəetmə prosesində fəal iştirakı təmin edilmişdir. Belə ki, 2019/2020-ci tədris ilindən başlayaraq MDU-nun Elmi Şurasında və fakültə elmi şuralarında tələbələr bərabərhüquqlu üzv statusunda təmsil olunurlar. Bundan başqa, qış və yaz imtahan sessiyalarının təşkili çərçivəsində yaradılmış İmtahan Qərargahı və Apellyasiya Komissiyalarının tərkibinə fəal tələbələr də daxil edilmişdir.

*Yeni dövrün tələblərinə uyğun struktur bölmələr*

MDU-nun strukturunun təkmilləşdirilməsi və yenidən qurulması ilə bağlı təkliflərin hazırlanması məqsədilə yaradılmış İşçi Qrupunun üzvləri arasında da tələbə vardır. İşçi Qrup tərəfindən cari və strateji idarəetmənin səmərəliliyinin artırılması məqsədilə mövcud qanunvericiliyin tələbləri gözlənilməklə hazırlanmış təkliflər Elmi Şura tərəfindən təsdiq olunmuşdur. Nəticədə universitetdə Tədris şöbəsi, Magistratura və doktorantlarla iş şöbəsi, Elm və innovasiyalar şöbəsi, Beynəlxalq əməkdaşlıq ofisi, İnsan resursları şöbəsi, Daxili audit şöbəsi, İctimaiyyətlə əlaqələr şöbəsi və Dəftərxana yaradılmışdır. Struktur islahatları tədris prosesinin daha səmərəli təşkilinə, idarəetmədə paralelliyin aradan qaldırılmasına, innovativ fəaliyyətin daha effektiv əlaqələndirilməsinə, kadr potensialının inkişafının daha sistemli planlaşdırılmasına, ictimaiyyətlə əlaqələr və kargüzarlıq işinin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə imkan yaratmışdır.

*İctimai Nəzarət Şurası*

Universitet idarəçiliyində şəffaflığın artırılması və ictimai hesabatlılığın təmin edilməsi məqsədilə MDU-nun İctimai Nəzarət Şurası yaradılmışdır. Təhsil, səhiyyə, mədəniyyət, mətbuat, gənclər və idman sektorlarını təmsil edən 9 təcrübəli mütəxəssisdən və ziyalıdan ibarət olan Şura tədrisin və imtahan sessiyalarının təşkilində, tələbə və valideynlərin müraciətlərinə baxılması prosesində, struktur islahatlarının müzakirəsində, universitetlə Mingəçevir şəhər ictimaiyyəti arasında kommunikasiyanın qurulmasında fəal iştirak edir. Mütəmadi olaraq toplanan Şuranın cari ilin 20 iyul tarixində keçirilmiş sonuncu iclasında MDU-nun rektoru 2019/2020-ci tədris ilinin yekunları haqqında geniş hesabat məruzəsi etmişdir.

*“Açıq qapı” günləri*

Tələbə, magistrant, əməkdaş və valideynlərin arzu və təşəbbüslərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə universitetin rəhbər şəxslərinin mütəmadi qəbul qrafiki müəyyən edilmişdir. Faktiki olaraq, hər bir şəxsin istədiyi vaxt universitetin rektoru ilə görüşməsi mümkündür. Rektorun iştirakı ilə qış imtahan sessiyası ərzində 5 dəfə, yaz imtahan sessiyası ərzində isə 7 dəfə online formatda keçirilən “Açıq qapı” günləri universitetlə bağlı bütün məsələlərin açıq müzakirə olunduğu səmərəli platformaya çevrilmişdir.

### Universitet həyatında yeni ənənələr

*İlk “Oriyentasiya günü”*

2019-cu ilin 13 sentyabr tarixində yeni qəbul olunan tələbələr üçün ilk dəfə “Oriyentasiya günü” keçirilmişdir. Tədbirin məqsədi onları universitetlə tanış etmək və onlara universitet həyatı barədə məlumat vermək olmuşdur. “Oriyentasiya günü”ndə gənc müəllimlər, tyutorlar, tələbə təşkilatlarının üzvləri və könüllü tələbələr fəal iştirak etmişlər. Yeni qəbul olunan tələbələr universitetin tədris infrastrukturu, tələbə təşkilatları, kitabxana resursları və idman qurğuları barədə geniş məlumat əldə etmişlər.

*Virtual “Məzun günü-2020”*

Cari ilin 29 iyun tarixində ali təhsil müəssisələri arasında ilk dəfə olaraq MDU-da virtual “Məzun günü-2020” tədbiri keçirilmişdir. 450-yə yaxın gəncin məzun olması münasibətilə fərqli formatda və məzmunda təşkil olunan tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı, MDU-nun məzunu Tahir Məmmədov, Milli Məclisin deputatı Aydın Mirzəzadə, digər qonaqlar, MDU İctimai Nəzarət Şurasının üzvləri və valideynlər məzunlara video-təbriklərini çatdırmışlar.

### Əməkdaşlara yüksək diqqət göstərilməsi

*Dövlət təltifləri*

5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Təhsil nazirinin müvafiq əmri ilə MDU-nun 2 əməkdaşı “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı, 5 əməkdaşı isə “Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı” ilə təltif olunmuşdur.

*Əməkhaqqı artımı*

Ölkə başçısı tərəfindən ali təhsil sahəsinə göstərilən yüksək diqqətin yaratdığı imkanlardan faydalanmaqla, 01 sentyabr 2019-cu il tarixindən etibarən MDU-da aylıq əməkhaqqı professor-müəllim, inzibati-idarə, tədris-köməkçi və xidmətedici heyət üzrə orta hesabla 15% artırılmışdır. Eyni zamanda, mövcud diskriminasiya aradan qaldırılmaqla, universitedə eyni vəzifə tutan əməkdaşlar üçün vahid vəzifə maaşı müəyyən edilmişdir. Nəticədə, aylıq vəzifə maaşı müəllim üçün 510, baş müəllim üçün 620, dosent üçün 730 və professor üçün 1000 manat məbləğində təyin edilmişdir.

*Həssas qrupdan olan əməkdaşlara xüsusi diqqət*

Kollektiv üzvlərinə göstərilən diqqətin tərkib hissəsi olaraq, 26 iyun Silahlı Qüvvələr Günü münasibətilə MDU-nun Həmkarlar İttifaqı Komitəsinin üzvləri şəhid ailəsi üzvü və Qarabağ müharibəsi veteranı olan əməkdaşları ailələrində ziyarət etmişlər. Bundan başqa, ömürlərinin böyük hissəsini MDU-nun uğurlarına sərf etmiş kollektiv üzvlərinə verilən yüksək dəyərin nümunəsi olaraq, cari ilin 23 may tarixində Ramazan bayramı münasibətilə universitetin qocaman əməkdaşları ailələrində ziyarət edilmişlər.

### Qabaqcıl universitetlərlə faydalı əməkdaşlıq

*Bakı Dövlət Universiteti*

Azərbaycan ali təhsilinin flaqmanı olan BDU ilə əməkdaşlığın əsası 2019-cu ilin 30 sentyabr tarixində qoyulmuşdur. Həmin gün universitetdə BDU-nun 100 illik yubileyinə həsr olunan tədbir keçirilmişdir. Yubiley tədbiri çərçivəsində BDU ilə MDU arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır. BDU-nun zəngin təcrübəsindən və yüksək potensialından faydalanmaqla, MDU-da ilk növbədə Pedaqoji fakultənin təkmilləşdirilməsi nəzərdə tutulur. İlk addım olaraq, MDU-nun 2 tələbəsi 2019/2020-ci tədris ilinin yaz semestrində BDU-da təhsil almışdır.

*Azərbaycan Dövlət İqtisad Universiteti*

UNEC və MDU arasında imzalanmış əməkdaşlıq müqaviləsi hərtərəfli əlaqələr üçün hüquqi baza yaratmışdır. Dünya səviyyəli universitet olmaq yolunda sürətlə irəliləyən UNEC-lə əməkdaşlıq daha çox MDU-da İqtisadiyyat və idarəetmə fakültəsinin modernləşdirilməsini hədəfləyir. MDU tələbələri, magistrantları və əməkdaşları BDU-da təşkil olunan bütün konfranslarda fəal iştirak edirlər. Bir MDU tələbəsi mübadilə proqramı çərçivəsində 2019/2020-ci tədris ilinin yaz semestrində UNEC-də təhsil almışdır. UNEC professoru və MDU dosentinin birgə müəllifliyi ilə “İdarəetmə təhlili” adlı dərslik nəşr olunmuşdur.

*Azərbaycan Texniki Universiteti*

“AzTU ilə MDU arasında təhsil, elm və innovasiya fəaliyyəti üzrə qarşılıqlı əməkdaşlıq haqqında” Anlaşma Memorandumu çərçivəsində əhəmiyyətli addımlar atılmışdır. AzTU tərəfindən hədiyyə olaraq təqdim olunan çoxsaylı dərslik və dərs vəsaitləri MDU-da Mühəndislik fakültəsinin potensialının gücləndirilməsində mühüm töhfə olmuşdur. AzTU-da keçirilən bütün tədbirlərdə MDU fəal təmsil olunur. 2019-cu ilin 29 noyabr tarixində AzTU ilə birlikdə MDU-da keçirilən “Sosial-İqtisadi İnkişafın Dayanıqlı Enerji Təminatı: universitet - sənaye işbirliyi və innovativ kadr hazırlığı” mövzusunda I regional elmi-texniki konfrans uğurlu və məhsuldar olmuşdur.

### Beynəlxalq əməkdaşlığın əsas prioritetləri

*Erasmus+ proqramı*

Qabaqcıl xarici təcrübə ilə tanışlıq və kadr hazırlığı prosesinin məzmununu müasirləşdirmək məqsədilə Avropa Komissiyasının Erasmus+ proqramının imkanlarından faydalanmaq istiqamətində zəruri addımlar atılmışdır. Bu proqram çərçivəsində MDU ilə İspaniyanın Vallodolid Universiteti arasında reallaşdırılan tələbə mübadiləsi tələbələr arasında çox populyardır. Başa vurduğumuz tədris ilinin payız semestrində 2, yaz semestrində isə 3 MDU tələbəsi İspaniyada təhsil almışdır.

Bundan başqa, MDU Erasmus+ proqramı çərçivəsində Bakı Biznes Universitetinin koordinatorluğu ilə reallaşdırılan “Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” layihəsində də fəal iştirak edir. Layihə MDU əməkdaşlarının bilik və bacarıqlarının inkişafına mühüm töhfələr vermişdir.

*Beynəlxalq tədbirlərdə təmsilçilik*

Universitetin beynəlxalq ali təhsil məkanının imkanlarından faydalanması məqsədilə beynəlxalq tədbirlərdə iştiraka xüsusi əhəmiyyət verilmişdir. Əməkdaşlar Azərbaycanda, Böyük Britaniyada, Finlandiyada, İsveçdə, Rusiya Federasiyasında, Çex Respublikasında, Litvada və Koreyada təşkil olunan seminar və forumlarda iştirak etmişlər. Sevindiricidir ki, MDU Bolonya prosesi üzrə İşçi Qrupunun növbəti iclasında (Helsinki), X Rusiya-Azərbaycan Regionlararası Forumunda (Moskva) və “Ali təhsil islahatları ekspertlərinin illik konfransı”nda (Praqa) təmsil olunmuşdur.

*Litvanın aparıcı universiteti ilə ilkin təmaslar*

Cari ilin 30 iyun tarixində Litvanın Mikolas Romeris Universiteti (MRU) ilə əməkdaşlığın yaradılmasına dair görüş keçirilmişdir. Hər iki rektorun iştirak etdiyi iclasda Azərbaycan və Litva prezidentləri arasında keçirilmiş son görüşdə strateji tərəfdaşlığın əsas istiqamətləri sırasında təhsil sahəsinin vurğulandığı diqqətə çatdırılmışdır. İki universitet arasında tələbə və müəllim mübadiləsi, Erasmus+ və HORİZON 2020 proqramlarında birgə iştirak, birgə elmi tədqiqatların aparılması və elmi jurnallarda nəşr imkanları, ortaq elmi konfransların və yay məktəblərinin keçirilməsi, gələcəkdə ikili diplom proqramlarının yaradılması üçün geniş imkanların olduğu bildirilmişdir. İclasda yaradılmış ortaq İşçi Qrupuna 2020/2021-ci tədris ilində MDU və MRU arasında reallaşdırılacaq konkret tədbirləri özündə əks etdirən İş Planı hazırlanması tapşırılmışdır.

### Professor-müəllim və tələbə heyətinin bacarıqlarının inkişaf etdirilməsi

*“Peşəkarla görüş” layihəsi*

Cari ilin may ayında universitetdə “Peşəkarla görüş” adlı layihəyə start verilmişdir. Layihənin məqsədi MDU əməkdaşları və tələbələrinin peşəkarların bilik və bacarıqlarından faydalanması üçün imkanların yaradılmasından ibarətdir. Layihə çərçivəsində keçirilmiş 3 görüşdə BP şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli “Gənclərin karyera inkişafı”, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev “Müasirləşən ali təhsil və yüksək ixtisaslı mütəxəssis hazırlığı”, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov isə “Müəllim hazırlığı” mövzularında məruzələr etmişlər.

*Amerikalı professor MDU-da*

ABŞ Dövlət Departamentinin “English Language Fellow” təqaüd proqramı çərçivəsində 2019/2020-ci tədris ilində Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən ingilis dili mütəxəssisi Richard Schlight 2 dəfə MDU-da olmuşdur. Amerikalı qonaq “Xarici dillər” kafedrasının əməkdaşları, “Xarici dil müəllimliyi” (ingilis dili üzrə) ixtisası üzrə təhsil alan magistrant və bakalavrlar üçün qabaqcıl tədris metodları, tələbələrlə işin təşkili xüsusiyyətləri, ingilis dilinin mənimsənilməsi yolları, tənqidi düşüncə, ünsiyyət bacarıqları və digər mövzularda təlim seminarları keçmişdir.

*Sənaye təmsilçiləri tərəfindən təlimlər*

Mingəçevir Sənaye Parkının rezidenti “Mingəçevir Tekstil” MMC ilə yaradılmış əməkdaşlıq çərçivəsində şirkətin təcrübəli mütəxəssisləri tərəfindən gənc əməkdaşlar və tələbələr üçün insan resurslarının idarəedilməsi və informasiya texnologiyalarının tətbiqi mövzularında master-klasslar verilmişdir.

“Tufandağ” xizək qış-yay istirahət kompleksinin mütəxəssisi tərəfindən “Turizm və otelçilik” ixtisası üzrə təhsil alan 35 tələbə üçün “Qış turizminin təşkili” mövzusunda seminar keçirilmişdir.

*Fərqli mövzularda təlim proqramları*

Tələbələr Mingəçevir şəhər Məşğulluq Mərkəzi tərəfindən təşkil olunan “Karyerada ilk addım” mövzusunda təlimdə, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə Gənclər üçün Təhsil Mərkəzi tərəfindən reallaşdırılan “Sabahın sahibkarları” layihəsi çərçivəsində təşkil olunan “İnsan Mühəndisliyi”, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən həyata keçirilən “İş Qatarı” proqramlarında, Hindistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi, Bakı Gənclər Mərkəzi və Mingəçevir Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən “Student Solar Lamp Workshop” layihəsində fəal iştirak etmişlər.

### Startap fəaliyyətinin dəstəklənməsi

*İnnovasiyalar Agentliyi ilə faydalı əməkdaşlıq*

Tələbələrin startap fəaliyyətinə daha fəal cəlb olunması və onların kreativ ideyalarının layihələrə çevrilməsinə xüsusi diqqət yetirilmişdir. MDU ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnnovasiyalar Agentliyi arasında Anlaşma Memorandumunun imzalanması bu istiqamətdə mühüm nailiyyət olmuşdur. Əməkdaşlıq çərçivəsində Mingəçevir Yüksək Texnologiyalar parkında birgə yaradılmış “Simbioz” texnoloji biznes inkubatorun fəaliyyətində tələbə və müəllimlər fəal iştirak edirlər.

*“Virtual Hackathon-2020”*

Azərbaycan Texniki Universiteti ilə Türkiyənin OSTİM Texniki Universitetinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “Innoland” İnkubasiya və Akselerasiya Mərkəzi və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tərəfdaşlığı ilə keçirilən “Virtual Hackathon-2020” müsabiqəsində iştirak edən 27 komanda arasında MDU-nun “Crisis Heroes” komandası 4-cü yerə çıxmışdır.

*“Aquahack” hakaton yarışması*

MDU-nun komandası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin İnkişaf Proqramının birgə təşkilatçılığı ilə keçirilən “Aquahack” ilk virtual hakaton yarışmasında da uğurla iştirak etmişdir. Komandanın “Artificial İrrigation” layihəsi təşkilatçılar tərəfindən bəyənilmiş və müvafiq avadanlıqla təmin edilmişdir.

### Vətənpərvərlik tərbiyəsi və könüllülük fəaliyyəti

*Vətənpərvərlik-Vətənə xidmətin ali zirvəsidir*

Ölkə başçısının BDU-nun 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqindən irəli gələn vəzifələri nəzərə alaraq, MDU-da tərbiyə işinin təkmilləşdirilməsi, təhsialanların vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan tarixinin tədrisinin təkmilləşdirilməsi və tələbələrlə ideoloji işin gücləndirilməsi diqqət mərkəzində saxlanılmışdır. Bu kontekstdə, 2019-cu ilin 24 dekabr tarixində Mingəçevir şəhər Gənclər və İdman İdarəsi və Mingəçevir Peşə Məktəbi ilə birgə “Vətənpərvərlik-Vətənə xidmətin ali zirvəsidir” mövzusunda təşkil olunan tədbirdə 2016-cı ilin Aprel döyüşləri şəhidlərinin valideynləri, Aprel döyüşləri şəhidinin övladı, Aprel döyüşçüləri iştirak etmişlər.

*Aprel döyüşləri*

Cari ilin 4 aprel tarixində universitetdə “Aprel döyüşləri müstəqil Azərbaycanın müasir tarixinin qələbə və qəhrəmanlıq salnaməsidir” mövzusunda virtual konfrans keçirilmişdir. Ali Baş Komandanın “Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir” fikirləri üzərində qurulan konfransda “Aprel döyüşləri Azərbaycanın hərbi qüdrətinin və Azərbaycan əsgərinin rəşadətinin təntənəsi kimi” mövzusunda məruzə dinlənilmişdir. MDU tələbələri tərəfindən Aprel döyüşlərinin mingəçevirli qəhrəmanları haqqında hazırlanan videoçarx böyük marağa səbəb olmuşdur. Tədris ili ərzində əlamətdar günlər münasibətilə MDU əməkdaşları bir neçə dəfə həmin qəhrəmanların ailələrini ziyarət etmişlər.

- **Qabaqcıl dünya təcrübəsindən faydalanmaqla universitet idarəçiliyində daha çevik alətlərin tətbiqinə və şəffaf mexanizmlərin yaradılmasına mühüm diqqət yetirilmişdir.**
- **Struktur islahatları tədris prosesinin daha səmərəli təşkilinə, idarəetmədə paralelliyin aradan qaldırılmasına, innovativ fəaliyyətin daha effektiv əlaqələndirilməsinə, kadr potensialının inkişafının daha sistemli planlaşdırılmasına, ictimaiyyətlə əlaqələr və kargüzarlıq işinin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə imkan yaratmışdır.**
- **Rektorun iştirakı ilə qış imtahan sessiyası ərzində 5 dəfə, yaz imtahan sessiyası ərzində isə 7 dəfə online formatda keçirilən “Açıq qapı” günləri universitetlə bağlı bütün məsələlərin açıq müzakirə olunduğu səmərəli platformaya çevrilmişdir.**
- **Ali təhsil müəssisələri arasında ilk dəfə olaraq MDU-da virtual “Məzun günü-2020” tədbiri keçirilmişdir.**
- **Təhsil nazirinin müvafiq əmri ilə MDU-nun 2 əməkdaşı “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı, 5 əməkdaşı isə “Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı” ilə təltif olunmuşdur.**
- **Aylıq vəzifə maaşı müəllim üçün 510, baş müəllim üçün 620, dosent üçün 730 və professor üçün 1000 manat məbləğində təyin edilmişdir.**
- **Başa vurduğumuz tədris ilinin payız semestrində 2, yaz semestrində isə 3 MDU tələbəsi İspaniyada təhsil almışdır.**
- **2019/2020-ci tədris ilinin yaz semestrinin online imtahan sessiyası çərçivəsində ali təhsil müəssisələri arasında ilk dəfə olaraq MDU-da “İmtahan könüllüsü” adlı layihə həyata keçirilmişdir.**

⇨Ardı səh.8



**Tanıtım**

1988-ci ildə Cəbrayıl rayonunun Maralyan kəndində anadan olub. Orta təhsilini Sumqayıt şəhərindəki "İstedad" liseyində alıb. Məktəb illərində bir neçə dəfə müxtəlif olimpiadalarda və bilik yarışlarında iştirak edib.

2005-2009-cu illərdə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisası üzrə bakalavr təhsili alıb. 2009-2012-ci illərdə Bakı Dövlət Universitetində həmin ixtisas üzrə magistr təhsilini fərqlənmə ilə bitirib. 2014-cü ildə SOCAR-ın Xarici Təqaüd Proqramının qaliblərindən biri seçilib və təhsilini bu şirkətin hesabına Böyük Britaniyanın Kardiff Universitetində beynəlxalq insan resurslarının idarə edilməsi üzrə magistr səviyyəsində davam etdirib. 2015-ci ildə 2-ci magistr təhsilini fərqlənmə ilə bitirib və təhsildəki uğurlarına görə Culian Hodc (Sir Julian Hodge) mükafatı ilə təltif edilib.

# "İnkişaf təhsildən başlayır"

## *Sona Qaçayeva:* "Dövlət idarəçiliyində yüksək ixtisaslı gənclərin təmsil edilməsi təhsilimizin uğurudur"

**Oruc MUSTAFAYEV**

Müasir dövrün çağırışları Azərbaycanda prioritet istiqamət kimi bilik iqtisadiyyatının formalaşdırılmasını və insan kapitalının inkişafını zəruri edir. Bu zərurət ölkəmizdə ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması məsələsini müstəsna dərəcədə əhəmiyyətli edir. İnkişaf etmiş ölkələr davamlı və uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail olmuşdur. Bu mənada 2018-ci ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizin təhsil sisteminə innovasiyalar gətirəcək mühüm bir addım kimi qiymətləndirilməkdədir. Bu proqrama müraciət edən və doktorant təhsilini Böyük Britaniyanın Edinburq Universitetində davam etdirmək imkanı qazanmış gənclərdən biri də Sona Qaçayevadır.

*- 2019-2023-cü il Dövlət Proqramına qəbul olundunuz. Proses sizin üçün necə keçdi? Prosesin təşkili barədə nə deyə bilərsiniz?*

- Təhsilimi doktorantura səviyyəsində davam etdirməyi bir neçə il idi ki, planlaşdırırdım. 2019-cu ildə ən son QS Dünya Universitetləri Reytinqi üzrə (QS World University Rankings 2021) dünyada 20-ci yerdə olan Edinburq Universitetinə (The University of Edinburgh) sənədlərimi verdim və ardınca bir neçə mərhələli müsahibədən uğurla keçdikdən sonra İdarəetmə elmləri üzrə doktorantura səviyyəsinə qəbul oldum. Təhsil Nazirliyinin rəsmi veb səhifəsində Təqaüd Proqramının elanını gördüm və müraciət etməyə qərar verdim. Təqaüdə müraciət elanında, əslində, lazım olan bütün məlumatlar qeyd edilir və hətta sual olarsa, Nazirliyin əməkdaşları köməklik göstərirdilər. Proqrama müraciət elektron ərizə vasitəsi ilə həyata keçirilir. Hər bir mərhələni və nəticəsini burada asanlıqla izləmək olur. Yəni, ümumilikdə çox yaxşı təşkil edilmiş bir prosesdir.

*- DP-nin yüksək bilikli mütəxəssislərin hazırlanmasında rolunu necə qiymətləndirirsiniz?*

- Hesab edirəm ki, yüksək ixtisaslı kadrların və müxtəlif elmlər sahəsində beynəlxalq səviyyəli araşdırmaçıların yetişməsində proqramın rolu əvəzsizdir. Universitetlərin beynəlxalq reytinqinin formalaşmasında belə müəllimlərin və araşdırmaçıların mühüm rolu var. Hamıya məlumdur ki, dünyanın aparıcı universitetlərində təhsil almaq olduqca böyük maliyyə vəsaiti tələb edir. Dövlət Proqramının bununla bağlı bizə kömək olması gənclər üçün müqayisə edilməz dəstəkdir.

*- Seçdiyiniz ixtisas barədə məlumat verərdiniz. Doktorant olaraq hansı mövzu üzərində işləyəcəksiniz?*

- Qeyd etdiyim kimi, Edinburq Universitetinin İdarəetmə üzrə doktorantura pilləsinə daxil olmuşam. Tədqiqat mövzum Azərbaycanda işçilərin təşkilati ədalət mühakimələri və bunun təsirləri barədədir. Təşkilati ədalət yüksək olan müəssisələrdə işçilərin məmnunluğu, işə bağlılığı və ən əsası performansı yüksək olur. Bu baxımdan, təşkilatların idarə edilməsində olduqca vacib məsələlərdən biri hesab edilir. Ümumiyyətlə, Amerika və Avropa ölkələrində biznesin və təşkilatların idarə edilməsində etibarlı elmi araşdırmaların rolu böyükdür. İstərdim ki, Azərbaycanda da bu sahədə alimlər yetişsin, təşkilatların (həm dövlət, həm də özəl sektor) idarə edilməsi sahəsində ölkəmizin spesifikasına uyğun elmi dəlillər toplansın və onlardan təşkilatların fəaliyyətinin effektivliyinin artırılmasında istifadə olunsun.

*- Tədqiqatlarınızın tərəfdaş ali təhsil müəssisəsi üçün əhəmiyyətini necə qiymətləndirirsiniz?*

- ADA Universitetində biznesin idarə edilməsi ilə bağlı beynəlxalq səviyyəli dərslər keçirilir. Həmçinin, biznes və idarəetmə sahəsində ADA Universiteti bir sıra layihələrin müəllifi və təşkilatçısıdır. Bu səbəbdən hesab edirəm ki, həm dissertasiya tədqiqatım, həm planladığım bir sıra digər tədqiqatlar, həm də əldə edəcəyim akademik təcrübə bu universitet üçün və orada təhsil alan tələbələrimiz üçün faydalı olacaq.

*- Məlum olduğu kimi, Azərbaycanda dövlət idarəçiliyində yüksək hazırlıqlı gənclərin təmsilçiliyi artır. Dövlətin gənclərə bu etimadını necə dəyərləndirirsiniz?*

- Fikrimcə, inkişaf təhsildən başlayır. Dövlət idarəçiliyində yüksək ixtisaslı gənclərin təmsil edilməsi son illərdə həm təhsilimizin, həm də idarəçiliyimizin uğurudur. İnanıram ki, bu etimad özünü doğruldacaq.

*- Sizcə, DP-nin də əsas hədəflərindən olan yüksəkrəqabətli mütəxəssislər hansı meyarlara cavab verməlidir?*

- Proqramın əsas hədəf qrupu dünyanın top 500 universitetlərində doktoranturaya qəbul əldə etmiş şəxslərdir. Yəni buna nail olmuş insanın təhsili, savadı, biliyi onsuz da yüksək səviyyədədir, əks təqdirdə həmin universitetlər onu qəbul etməzdi. Fikrimcə, əsas meyarlardan biri bu mütəxəssislərin gələcəkdə pedaqoji fəaliyyətdən daha çox elmi fəaliyyətlə məşğul olmaq istəyi çox mühüm amildir. Çünki Azərbaycanın və elmimizin belə alimlərə çox ehtiyacı var. Elmin inkişafı ölkənin inkişafına aparan yollardan biri və bəlkə də, birincisidir.

*- Hazırda bir çox orta məktəb məzunu xaricdə təhsil almaq üçün seçim edir, gənclərə nə kimi tövsiyələriniz olardı?*

- İstək çox qapının açarıdır. Yadımdadır, SOCAR-ın Xarici Təqaüd Proqramına sənəd verərkən o qədər də ümidli deyildim, çünki rəqabət böyük idi, amma çox istəkli və məqsədyönlü idim. Çox çalışdım, oxudum və seçildim. Gənclərə burdan demək istəyirəm ki, əziyyət heç vaxt yerdə qalmır. İstəyin, çalışın, mütləq alınacaq.

*- Gələcək hədəfləriniz barədə...*

- Düşünürəm ki, Dövlət Proqramı biz gənclərə ölkəmizin inkişafı naminə öz töhfələrimizi vermək üçün geniş imkanlar yaradır. Bu baxımdan hazırda əsas hədəfim doktorantura təhsilimi uğurla bitirib elmi fəaliyyətə başlamaqdır. Bundan əlavə, ölkəmiz üzrə bəzi tədqiqat ideyalarım var və onları həyata keçirməyi planlayıram. Bu tədqiqatların nüfuzlu beynəlxalq jurnallarda çap edilməsini istəyirəm.

## ABŞ-ın bəzi universitetləri təhsil haqlarını azaldıb

**Oruc MUSTAFAYEV**

Corctaun Universitetinin 2 minə yaxın tələbəsi universitet rəhbərliyinə müraciət ünvanlayaraq bildirib ki, distant təhsilə keçid fakültativ və ya praktiki məşğələlərin ixtisarına, bəlkə də tamamilə ləğvinə səbəb olub. Bundan əlavə, pandemiya tələbələrin universitet kampusunun resurslarına çıxışlarını kəskin şəkildə məhdudlaşdırıb. Amma universitetdə təhsil haqqı yenə də əvvəlki kimi qalıb - ildə təxminən, 58 min dollar.

"Financial Times"-in məlumatına görə, tələbələrin müraciətindən sonra universitet rəhbərliyi təhsil haqlarını 10% azaltmağa razı olub. İyulun əvvəlində Prinston Universiteti tərəfindən də təhsil haqlarının azaldığı elan edilib. "Biz etiraf edirik ki, uzaqdan verə biləcəyimiz və kampusda verə biləcəyimiz təhsil arasında fərq var", - deyə Prinston Universitetinin prezidenti Kristofer Aysqruber bildirib.

Uilyam Kolleci (Massaçusets ştatı) də bütün yığımların 15%, təhsil haqqının isə 10% azaldığını elan edib.

Lakin ölkənin digər universitetləri fərqli mövqedədir. Harvard Universiteti təhsil haqqını azaltmağın mümkünlüyünü istisna edib, Yel Universiteti isə onu 55,5 min dollardan 57,7 min dollara qədər qaldırıb.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5815, **Sifariş** 1807

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Gədəbəy Rayon Məhkəməsinin** 21.11.2016-cı il tarixli, 2(042)-1353\2016-saylı Qətnaməsi ilə AMİ-nin Qazax filialı tərəfindən Qasımova Aybəniz Kamil qızının adına verilmiş 2009-cu il tarixli, B-143085 nömrəli diplom etibarsız hesab edilmişdir.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2001-ci ildə Mirəliyev Taleh Əli oğluna verilmiş A-084539 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Fizika, Riyaziyyat və İnformatika təmayüllü** Liseyi 2005-ci ildə bitirmiş Qurbanov Pərviz Eldar oğluna verilmiş B-215239 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 12 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Məhəmmədova Ləman Məhəmməd qızına verilmiş E-232590 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADRA nəzdində İncəsənət Kolleci** tərəfindən 2017-ci ildə Abdulova Cəvahir Fərman qızına verilmiş AA-099978 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qurbanov Elman Eyyub oğluna verilmiş B-384324 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 2005-ci ildə Hüseynova Sevinc Həsən qızına verilmiş BB-I-000919 nömrəli diplom və 2006-cı ildə verilmiş 0665 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Cücük kənd tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Hüseynov Vüsal Hüseynbala oğluna verilmiş B-144940 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Böyük Qışlaq kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Əliyev Tural Şahniyar oğluna verilmiş A-224414 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2011-ci ildə Qasımzadə Şabacı Bəxtiyar qızına verilmiş AA-017502 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Rəhmanov Mehdi Eldar oğluna verilmiş E-087905 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2019-cu ildə Hüseynova Mədinə Məhəmməd qızına verilmiş AT-005592 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 200 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyev Vəli Yusif oğluna verilmiş BN-172239 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyov adına Naxçıvan Musiqi Kolleci** tərəfindən 2007-ci ildə Səfərova Dilarə İslam qızına verilmiş BB-II-071151 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Ceyranbatan qəsəbə 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyev Samir Şakur oğluna verilmiş BN-025611 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 6 nömrəli məktəb-liseyi 2020-ci ildə bitirmiş Əsədli Səxavət Rahid oğluna verilmiş E-289012 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 31 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Bəşirov Vilayət Elxan oğluna verilmiş A-520767 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**67 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1997-ci ildə Baxışov Anar Rafiq oğluna verilmiş AB-010361 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 201 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədov Namiq Fərman oğluna verilmiş AN-511359 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kirovabad Avtomexanika Texnikumu** tərəfindən 1989-cu ildə İsmayılov Məmməd Heydər oğluna verilmiş MT-I-283334 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyi** tərəfindən 2019-cu ildə Abdullayev Anar Vaqif oğluna verilmiş E-186598 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Alıcanlı kənd orta məktəbini 2000-ci ildə bitirmiş Əmirova (Mütəllimova) Lamiyə Zahir qızına verilmiş AN-465253 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Qiyaməddinli kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Zeynalova Səadət Yaşasın qızına verilmiş 037413 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** 3 nömrəli məktəb-liseyin IX sinfini 1995-ci ildə bitirmiş Məmmədova Aygün Məzahir qızına verilmiş A-111999 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** 7 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Həsənov Arif Rövşən oğluna verilmiş A-631063 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Kürdlər kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Sultanov Əslan Saleh oğluna verilmiş B-701033 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Boyad kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Bağırova Xəyalə Suren qızına verilmiş A-639463 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** İnstitut qəsəbə tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədov Anar Xanlar oğluna verilmiş B-519327 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və kollektivi Bakı şəhəri 270 nömrəli tam orta məktəbin direktoru

**ƏLİ İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

ADPU-nun Məktəbəqədər tərbiyə fakültəsinin dekanı Şəhla Əliyeva və pedaqoji psixologiya kafedrasının əməkdaşları pedaqoji psixologiya kafedrasının müdiri Qızxanım Qəhrəmanovaya atası

**NİZAMƏDDİN QƏHRƏMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Qloballaşma, modernləşdirmə və innovasiyalı təhsil sisteminin paradiqması

Bəşər tarixində misli görünməmiş və dünyanı cənginə almış yeni pandemiya insan həyatını yeni münasibətlərə təhrik etdi. Bəşəriyyətin nizamını dəyişən bu hadisələr iqtisadi, sosial və mədəni dəyişikliklərin əhatəsindədir. Nəticədə Yer kürəsində yaşayan bütün xalqların, millətlərin və ölkələrin inteqrasiyası qloballaşmanın zəruri amillərdən birinə çevirməsini sual altına almışdır. Dünyanın yeni coğrafi kəşfindən sonra ənənəvi cəmiyyətdən müasir cəmiyyətə makro keçid prosesi baş verdi. Hazırda isə pandemiyadan sonrakı dövr üçün yeni münasibətlər formalaşmaq üzrədir. Sosial mənada üç müxtəlif anlamı nəzərinizə çatdırmaq istərdim: Qərbi Avropa, Şimali Amerika və müasir Avropa. Qərbi Avropadakı protestant əmək etikası bazar iqtisadiyyatı və liberal hüquq münasibətlərinin formalaşması zəminində meydana gəldi. Bu proses bir neçə əsr çəkdi: XIX əsrin birinci yarısındakı ənənəvi cəmiyyətdən (sənayeyə qədərki) sənaye inqilabınadək – ingilis inqilabı (1640–1642-ci illər), Amerika inqilabı (1776-cı il) və böyük Fransa inqilabı (1789-cu il). XVI–XVIII əsrlərdə baş verən bu hadisələr Qərbi Avropada modernləşmə prosesini sürətləndirdi. Həmin proseslərin inkişaf mərhələlərini belə xarakterizə etmək olar:



**Hümeyir ƏHMƏDOV,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

Manufaktura və ya erkən sənaye dövründə modernləşmə (XVI əsr və XVII əsrin ortaları); Sənayenin inkişafı dövründə modernləşmə (XVII əsrin sonu və XIX əsr); Erkən sənayeləşmə dövründən sonrakı modernləşmə, ictimai cəmiyyətin yaranması (XX əsrin birinci yarısı); İri sənayeləşmədən sonrakı dövrdə modernləşmə (XX əsrin ortalarından bu günədək).

Modernləşmə dedikdə müasir dövrün tələblərinə, yeni tələb və normalara, müasir texnoloji proseslərə uyğunlaşmaq kimi başa düşülür. Artıq XIV əsrdən etibarən Qərbi Avropanın dünyada siyasi və intellektual təsiri hiss olunmağa başladı. XIX əsrin ikinci yarısı – XX əsrin birinci yarısında imperiyaların müstəmləkəçilik siyasəti həyata keçirilirdi. Burada Qərbə, Avropaya yaxınlaşmaya dair I Pyotrun islahatlarını, Yaponiyada Meydzin inqilabını, Türkiyədə Mustafa Kamal Atatürkün islahatlarını, Latın Amerikası və Fars körfəzində ərəb ölkələrinin xammal bazası əsasında qərbləşməsini, SSRİ-nin sənayeləşməsini, avtoritar rejimlərdə və XX əsrin 50-90-cı illərində Cənub-Şərqi Asiya ölkələrində modernləşməni və s. qeyd etmək olar. Yaponiya, Koreya və Çin öz milli xüsusiyyətlərini saxlamaqla müasirləşmə (avropalaşma) prosesində aktiv iştirak edirdilər. Bəzi alimlərin fikrincə, dünyada gedən modernləşməni iki qrup ölkələrə şamil etmək olar: "isti" və "soyuq" (yəni avtoritar və demokratik) ölkələrə.

Qloballaşma pandemiyadan sonrakı dövr üçün insanlarda yaradıcı təfəkkürün, kreativ düşüncənin yeni reallıqlara uyğunlaşmasını önə çəkir, əhatəli informasiyanı qiymətləndirərək çevik qərar qəbul edən, dövlətin bir sıra vacib sahələrinin perspektivini proqnozlaşdıra bilən yeni nəsil kadrların hazırlanmasının vacibliyini gündəmə gətirir. Qloballaşmanın dinamikliyini artıran və ona yeni çalar verən əsas amil informasiya texnologiyalarının güclü inkişafıdır.

Ümummilli lider Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində informasiya texnologiyalarının inkişafının insan həyatında mühüm dəyişikliklərə səbəb olacağını nəzərə alaraq bu sahəyə xüsusi diqqət yetirmiş və bugünkü inkişafın təməlini qoymuş, bu sahə üzrə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin tanınmış ali məktəblərində milli kadrların yetişdirilməsinə öz dəyərli töhfələrini vermişdir. Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra məhz böyük öndərin rəhbərliyi ilə təhsil sistemimiz xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun olaraq qurulmağa başlamışdır. Doğrudur, bu proses çox mürəkkəbdir.

*Ulu öndərin dediyi kimi, "Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək, səslənirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar".*

XXI əsrin ilk illərində siyasi, iqtisadi və mədəni sahələrdə Azərbaycanın potensialının güclənməsi əhalinin rifahının yüksəlməsinin əsas şərtlərindən biri oldu. Hazırda ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də sürətli dəyişikliklər baş verir. Lakin hələ həll olunmalı bir sıra məsələlər də qalmaqdadır. Onların aradan qaldırılması yollarını əvvəlcədən müəyyənləşdirmək çətindir. Çünki əldə olunan yeni innovasiyalar və biliklər sürətli dəyişikliklər baxımından tez bir zamanda əhəmiyyətini azaldır və təhsilin paradiqması ona uyğun olaraq dəyişilir. Məhz bu amilə əsasən insanların əldə etdiyi ali təhsil bilikləri də mütəmadi olaraq yeniləşir. Aktual məsələlərdən biri də indiki dövrdə universitetlərdə innovativ ideyaların tətbiqi və beynəlxalq rəqabətə davamlılığının təmin olunmasına şərait yaratmaqdır. Bunu nəzərə alan dövlətimiz dünyanın bir çox nüfuzlu ölkələrində olduğu kimi, ali təhsil sahəsinə də diqqəti daim artırır, bu sahədə aparılan islahatların beynəlxalq standartlara uyğunlaşdırılmasına çalışır.

Təhsilə yönəldilən dövlət vəsaitinin ilbəil artması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. BMT tərəfindən "Təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır.

Prezident İlham Əliyev bununla bağlı deyir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik".

Ulu öndər Heydər Əliyevin təhsil siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hazırda təhsil sistemində əsaslı islahatlar Dövlət Proqramları və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq həyata keçirilir. Təhsil sisteminin bütün sahələrində vəziyyətin təhlili, mühüm amillərin nəzərə alınması qloballaşma proseslərinin intensivləşdiyi şəraitdə Azərbaycanın ali təhsil sisteminin modernləşdirilməsinə əsas oldu.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir".*

- **Ulu öndərin dediyi kimi, "Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək, səslənirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar".**
- **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir".**

Azərbaycan Respublikasında aparılan sosial siyasət bir daha bunu təsdiq edir ki, müəllimlərimizin sosial vəziyyəti daha da yaxşılaşır və yaxın gələcəkdə digər qabaqcıl ölkələrdəki həmkarların durumu ilə bərabərləşəcəkdir. Ölkəmizin dinamik inkişaf edən iqtisadi potensialı bunu gerçəkləşdirməyə real zəmin yaradır. Son illərdə hökumətimiz tərəfindən pedaqoji işçilərin əməkhaqlarının sistemli və mütəmadi şəkildə artırılması dediklərimizi bir daha təsdiq edir.

Təhsilin modernləşdirilməsi milli ənənələr kontekstində müstəqil düşüncə predmeti idisə, yeni mərhələdə islahatların parametrləri müəyyən dərəcədə Avropa təhsil sisteminin və qloballaşan dünyanın çağırışlarına uyğun müəyyən olunur. Ali təhsilin modernləşdirilməsinin əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbediciliyinin və rəqabətqabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın davamlı ödənilməsi, habelə informasiya cəmiyyətinin və müasir biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

**(Ardı var)**




# Mingəçevir Dövlət Universiteti: modernləşməyə doğru

**Əvvəli səh.6**

## 2019/2020-ci tədris ili MDU-da uğurla başa çatıb

*Ulu Öndərin irsinin təbliği*

Ümummilli Liderin zəngin irsinin öyrənilməsi və təbliği istiqamətində çoxsaylı fəaliyyətlər həyata keçirilmişdir. Bu sıradan Ulu Öndərin anadan olmasının 97-ci ildönümünə həsr olunan "HEYDƏR ƏLİYEV: dahi siyasətçi və fenomen şəxsiyyət", "Azərbaycan xalqının şərəf tarixi: 15 iyun – Milli Qurtuluş Günü" və "14 iyul 1969-cu il: Tərəqqiyə aparan yolun başlandığı və qüdrətli Azərbaycan dövlətinin bünövrəsinin qoyulduğu gün" mövzularında konfransları xüsusi qeyd etmək lazımdır.

Sevindirici haldır ki, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə 2019-cu ildə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışında MDU 8-ci yeri tutmaqla 49 ali təhsil müəssisəsi arasında 14-18-ci yerləri bölüşmüşdür.

*Həmrəylik nümayişi*

COVID-19 infeksiyası ilə mübarizə sahəsində ölkə başçısı tərəfindən atılan qətiyyətli addımların dəstəklənməsi və Azərbaycan vətəndaşının sağlamlığına verilən yüksək önəmə görə təşəkkür bildirilməsi məqsədilə cari ilin aprel ayında universitetin iki əməkdaşı və Tələbə Gənclər Təşkilatının sədrinin məktubları Azərbaycan Prezidentinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Bundan başqa, iyulda MDU əməkdaşı və tələbəsinin Azərbaycan əsgərinə və Ali Baş Komandana dəstək, eləcə də doğma torpaqlarımızın erməni işğalından azad olunmasında iştiraka hazırlıq ifadə edən məktubları da Azərbaycan Prezidentinin rəsmi internet səhifəsində yer almışdır.

*"Bir" Tələbə-Könüllü Proqramı və "ASAN Könüllüləri"*

Tələbələrin könüllülük fəaliyyətinə fəal cəlb olunması üçün bütün zəruri dəstək tədbirləri həyata keçirilmişdir. Bu kontekstdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) "ASAN Könüllüləri" təşkilatı tərəfindən təqdim olunan imkanlardan aktiv istifadə olunmuşdur. 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi bu istiqamətdəki fəaliyyəti daha da genişləndirmişdir.

*"Region könüllüsü"*

MDU, Mingəçevir Gənclər Evi, Mingəçevir şəhər Gənclər və İdman İdarəsi, Mingəçevir şəhər Regional ASAN Xidmət Mərkəzinin birgə təşkilatçılığı ilə "Region Könüllülərinin İnkişaf Forumu" keçirilmişdir. Tələbələr sözügedən Forum çərçivəsində yaradılmış "Region Könüllüsü" Gənclər Hərəkatında fəal iştirak edirlər.

*"İmtahan könüllüsü"*

2019/2020-ci tədris ilinin yaz semestrinin online imtahan sessiyası çərçivəsində ali təhsil müəssisələri arasında ilk dəfə olaraq MDU-da "İmtahan könüllüsü" adlı layihə həyata keçirilmişdir. Layihə sonuncu kurs tələbələrinin imtahanların təşkilinə könüllü qismində cəlb olunmasını nəzərdə tutmuşdur. Könüllü tələbələr imtahanlara evdən qoşulan müəllimlərə və birinci-üçüncü kurs tələbələrinə texniki və təşkilati baxımdan köməklik göstərmişlər. "İmtahan könüllüləri" informasiya-kommunikasiya vasitələrinin geniş tətbiqi ilə keçirilən imtahan prosesində İmtahan Qərargahının, Tədris şöbəsinin, dekanlıqların və Apellyasiya Komissiyasının çevik və səmərəli fəaliyyətinə mühüm töhfələr vermişlər.

### COVID-19 infeksiyası ilə mübarizə

Cari ilin fevralından başlayaraq koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində kollektiv və tələbə heyəti arasında mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilmişdir. MDU əməkdaşları Mingəçevir şəhər İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının Mingəçevir şəhər təşkilatı və Mingəçevir şəhər Polis Şöbəsi tərəfindən birgə həyata keçirilən kütləvi maarifləndirmə işində də fəal iştirak etmişlər.

Bu dövrdə MDU-da dəfələrlə tibbi-profilaktik və dezinfeksiya işləri aparılmışdır. Mingəçevir şəhər Dezinfeksiya Stansiyasının əməkdaşları tərəfindən həyata keçirilən dezinfeksiya işləri bütün tədris binalarını, dəhlizləri, auditoriyaları, laboratoriyaları, idman zalını, kitabxanaları, inzibati otaqları, həyətyanı əraziləri və digər köməkçi tikililəri əhatə etmişdir.

COVID-19 infeksiyası ilə mübarizə sahəsində ölkəmizdə aparılan işlərə töhfə vermək məqsədilə, Elmi Şuranın qərarına əsasən MDU-nun hesabından Koronavirusla Mübarizəyə Dəstək Fonduna 15 (on beş) min manat vəsait köçürülmüşdür.

*Çoxsaylı təşəbbüslərdə fəallıq*

Pandemiya dövründə irəli sürülən çoxsaylı təşəbbüs və çağırışlara universitet aktiv qoşulmuşdur. Belə ki, MDU əməkdaşları və tələbələri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin #bizbirlikdəgüclüyük və #evdəqal çağırışlarına, Mədəniyyət Nazirliyi və "Kreativ Azərbaycan" portalının elan etdiyi "Evdə Qal, Evdə Yarat" təşəbbüsünə, İctimai Televiziya və Radio Yayımları Şirkətinin #virusameydanoxuyaq virtual fləşmobuna, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin "Əsgərə salam" aksiyasına və digər anoloji təşəbbüslərə fəal qoşulmuşlar. MDU tələbələrinin "Hərəyə bir kitab oxuyaq" və "Həkimlərimizə məktub yazaq" təşəbbüsləri də böyük marağa səbəb olmuşdur.

*Xüsusi risk qrupuna daxil olan ailələri ziyarət*

Yaranmış şəraitdə MDU ailəsinin hər bir üzvü xeyirxahlıq göstərməyi özünün insanlıq və vətəndaşlıq borcu hesab etmişdir. Karantin rejimi dövründə gənc əməkdaşlar və tələbələr xüsusi risk qrupuna daxil olmaqla xüsusi qayğıya ehtiyac duyan ailələri dəfələrlə ziyarət etmiş, onlara zəruri ərzaq məhsullarından ibarət sovqatlar çatdırmışlar.

*Modernləşməni sürətləndirən tərəfdaşlıqlar*

2019/2020-ci il tədris ilində universitetdə müvafiq istiqamətlər üzrə fəaliyyətin daha keyfiyyətli həyata keçirilməsində Təhsil Nazirliyi, Mingəçevir şəhər İcra Hakimiyyəti və digər tərəfdaşların davamlı töhfəsi mühüm rol oynamışdır. Məhz bu qarşılıqlı faydalı tərəfdaşlıqlar yeni missiyanın başlandığı ilk tədris ilində MDU-nun modernləşməyə doğru inamlı addımlar atmasını şərtləndirmişdir.